

# Baş nazir partiyalarla bağlı sərəncam verdi

*Siyasi partiyaların maliyyə hesabatının forması və qaydası hazırlanacaq. “Unikal” xəbər verir ki, bu, Baş nazir Əli Əsədovun müvafiq sərəncamında əksini tapıb. Sərəncama əsasən, Ədliyyə Nazirliyi İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı, icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) və Azərbaycan...*

Səh.2


# UNİKAL

№04 (2138) 27 yanvar 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




# Cahangir Əsgərov da "yolun sonuna" çatdı

## İctimai fikir birmənalıdır: AZAL rəhbərinin bu postda qalması üçün heç bir səbəb yoxdur

*Yola salmaq üzrə olduğumuz həftə ”Azərbaycan Hava Yolları” QSC-nin - AZAL-ın prezidenti Cahangir Əsgərovun vəzifəsindən kənarlaşdırıldığı barədə xəbər yayıldı. ”Hazırda AZAL-da yoxlamalar aparılır və təhvil-təslim prosesi gedir. Quruma rəhbərlik QSC-nin birinci vitse-prezidenti Samir Rzayevə tapşırılıb. Yaxın vaxtlarda Əsgərovun vəzifəsindən azad olunması ilə bağlı sərəncamın imzalanacağı gözlənilir” deyə yayılan məlumatda bildirilirdi. Bu xəbərə iki gün boyunca AZAL-dan hər hansı reaksiya gəlmədi. Yalnız iki günün tamamında bu məlumatın ”cəfəngiyyatdan ibarət olduğuna” dair açıqlama verildi. Lakin mötəbər mənbələr Vasif Talıbovun ardınca ”vurulacaq” növbəti yüksək vəzifəli şəxsin Cahangir Əsgərov olduğu...*

Səh.8



# Böyük güclər Ermənistanı oyuna salıb məhvə sürükləyirlər

Səh.9

# “Azərbaycan təhsili beynəlxalq təhsillə ayaqlaşmır”



*Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov ”Unikal”a müsahibə verib. O, təhsildə olan problemlərdən, repetitorluğun getdikcə genişlənməsindən, müəllimlərin əmək haqqının artırılmasından və başqa məsələlərdən danışıb.*

Səh.4

# Abel Məhərrəmov Qərbi Azərbaycan İcmasına çağırılmamasından gileyləndi



*”Məni indiyə qədər Qərbi Azərbaycan icmasının tədbirlərinə dəvət etməyiblər. Ola bilər ki, yaddan çıxmışam və yaxud nəzərdən qaçmışam”. Bunu ”Unikal”a açıqlamasında yeni yaradılan Qərbi Azərbaycan İcmasının iclaslarında görünməyən Bakı Dövlət Universitetinin keçmiş rektoru Abel Məhərrəmov deyib.*

Səh.2

# Milli Məclisin rəhbərliyi Erkin Qədirlinin məsələsini araşdıracaq



*Ötən gün deputat Erkin Qədirli sensasion açıqlama verib. O, Azərbaycan demokratik seçkinin mövcud olmadığını bildirib. Məsələ ilə bağlı Milli Məclisin İntizam Komissiyasının sədr müavini Fəzail Ağamalı ”Unikal”a açıqlama verib:*

Səh.5

# "Vəfalılar düşmür yada, vəfasızlar unudulmur" - Aygün Kazımova



***Xalq artisti Aygün Kazımova özəl günündə yenə adət-ənənəsinə sadiq qalıb.***

Pop diva yeni klipini sevənlərinin ixtiyarına verib. "Vəfasızlar unudulmur" adlı mahnının sözləri Şahin İlqar, musiqisi İsmayıl Əsədova məxsusdur. Ekran işi Moskvada lentə alınıb. Klipin rejissoru və layihənin rəhbəri İbrahim Zahidlidir. Çəkiliş Rusiyanın məşhur "Mag film Moscow" şirkətinin heyəti tərəfindən gerçəkləşdirilib. Klipdəki modellər də Rusiyadan seçilib.

Ölkənin əsas ulduzu klipdə beş fərqli obraz yaradıb. Kazımovanın stili üzərində dizayner Ülkər Zahidli çalışıb.

Aygün Kazımova klipdə vəfasızlıqla üzləşən qadın obrazını canlandırıb.

# "Əvvəllər bizi sayırdılar..." - Aktrisa Münəvvər Əliyeva

***"Mənim nə Kinematoqrafçılar İttifaqından xəbərim var, nə də ki, orada baş verən hadisələrdən. Mən aktrisayam, teatrda çalışıram. Yeri gəlmişkən, mən Şəfiqə xanımın ittifaqından ərizə yazıb çıxmamışam. Nəinki Şəfiqə xanımın, digər ittifaqdan da ərizəmlə çıxmamışam. Mənə sadəcə dedilər ki, iki ittifaqda da qalmaq olar. İndi bilmirəm ittifaqlarda qalmışam, ya yox? Bəlkə çıxarıblar?! İnanın ki, bunlardan da qətiyyən xəbərim yoxdur. O vaxtdan da Şəfiqə xanımla üz-üzə gəlməmişəm".***



"Unikal" xəbər verir ki, bunu moderator.az-a açıqlamasında əməkdar artist, Akademik Milli Dram Teatrının aktrisası Münəvvər Əliyeva deyib.

"Əvvəllər bizi sayırdılar, kino təqdimatlarına, kino gecələrinə dəvətnamə yollayırdılar, gedib iştirak edirdik. Artıq bu ənənə tarixə qovuşub. Bu illər ərzində heç bir kinoittifaqından bunları görmədim. Əslində onlar sayıb bizi dəvət etməlidir, çünki onların üzünü biz ağ edirik. Teatr aktrisaları üçün elə teatr ağlayır, kinoittifaq yox", - deyə aktrisa bildirib.

Tanınmış aktrisa teatrdakı işlərindən də danışıb. "Məni görmək istəyən tamaşaçıları teatra dəvət edirəm. Bu gün axşam saat 19:00-da "Medeya" adlı mono tamaşada çıxış edəcəyəm. 50 dəqiqəlik tamaşadır. Demək olar ki, bu tamaşa "Qatil"in başqa bir versiyasıdır. Əsərin əsas ideyası xəyanətə məruz qalmış qadının nələr edə biləcəyini göstərməkdir", - deyə o bildirib.



# "O çörək sizə zəhər olsun" - Afaq Başirqızı

***"Bu xalq onda bədbəxt olur ki, onun mədəniyyətinə və mədəniyyət xadimlərinə soyuq münasibət bəslənilir. Tünzalə Əliyevanın övladına dəstək olmaq üçün fond yaradılması ilə bağlı xalqa yox, incəsənət xadimlərinə müraciət etdim".***

"Unikal" xəbər verir ki, bu sözləri lent.az-a açıqlamasında Xalq artisti Afaq Başirqızı mərhum aktrisa Tünzalə Əliyevanın qızına yardım olunması ilə bağlı sosial şəbəkə hesabındakı paylaşıma münasibət bildirərkən, deyib.

Aktrisa onu da diqqətə çatdırıb ki, fond yaradılması təklifini incəsənət xadimlərinə ünvanlayıb:

"Tünzalə Əliyevanın qızı Zəhra üçün fond yaradılması təklifini incəsənət xadimləri üçün demişəm. Bunun xalqa aidiyyatı yoxdur. Vəssalam. Media nümayəndələri elə başlıqlar, elə yazılar yazırlar ki... Fikirlər kontekstdən çıxarılır. Camaat da yazını oxumamış, savadsız kütlə ağzına gələni yazır. Ayıb deyil? Sözüm jurnalistlərədir, yazı yazanda, başlıq qoyanda diqqətli olun. Məni təhqir etməklə çörək qazanırlarsa, o çörək zəhər olsun!".

Qeyd edək ki, Xalq artisti Afaq Başirqızı səhhəti ilə əlaqədar olaraq mərhum aktrisa Tünzalə Əliyevanın vida və dəfn mərasiminə qatılmamışdı.

# "Bəyənmədiyiniz müğənnilər Gülbahar Şükürlüyə yardım etdi"

***"Gülbahar Şükürlünü verilişimə zorla gətirməmişəm. Gülbahar xanım verilişimə şahzadə kimi gəldi və getdi. Mən xəstə uşaqlar ola-ola müğənnini gətirib bura otuzdurub, pul yığmaram".***



Axşam.az xəbər verir ki, bu sözləri aparıcı-prodüser Tarix Əliyev "Ümid ilə gəl" proqramında deyib. Xərçəngdən əziyyət çəkən Gülbahar Şükürlü üçün proqramında yardım yığan Tolik müğənnilərə səslənib:

"Müğənnilər, Gülbahar Şükürlü "Əməkdar artist"dir. Bəyənmədiyiniz Şəbnəm, Nəfəs, Zeynəb gətirib 3 min pul verdilər. Yeri gələndə onları bəyənmirik ki, bayağı mahnı oxuyurlar. Onlar bayağı mahnılar oxumaqla 1000 manat göndərdilər. Hanı Xalq, Əməkdar artistlər? Bir toya 15 min manata gedirlər. Dırnaqarası baxdıqlarınız sizinlə eyni statusda olan Əməkdar artistə yardım etdi. Siz gərək deyərdiniz ki, verilişə çıxma, hərəmiz 500-300 atışıb, bir illik müalicə pulunu verək. Rahidə Baxışova 2500 manat göndərdi, halbuki şou-proqrama 100 manata gedir".

Qeyd edək ki, bir neçə il əvvəl G.Şükürlünün beynində şiş aşkarlanmış və əməliyyat olunmuşdu. Hazırda qarmon ifaçısında yenidən xərçəng aşkarlanıb və o, müalicə alır.



## "Kim nə iş görür, kim nə edir, bunlar araşdırılmalıdır" - Deputat

***"İnsanlar danışırlar, eşidirik. Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, kim nə iş görür, kim nə edir, bunlar araşdırılmalıdır. İnsanlar incidilməməlidir. Bir də görürsən elementar bir şeydən ötrü insanlar get-gələ salınır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsinin bu gün keçirilən iclasında deputat Eldar İbrahimov deyib.

O bildirib ki, Bakıda bəzi ərazilərdə torpaqlar var ki, aydınlaşmayıb: "Belə ki, Zeytunluq deyilən sahə var. Həmin yer Abşeron rayonun hesabındadır, amma Binəqədi bələdiyyəsi vaxtilə sərəncam verib, insanlar orada ev tikiblər. Bəs bunların taleyi necə olacaq? Orada yaşayanlar özlərinə kupça ala bilmirlər. İnsanlar narahat olur".

***Anar Kəlbiyev***

## Bakıda vəzifəli şəxslər rüşvət alarkən saxlanıldı

***Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində qanunsuz ağac kəsməni rəsmiləşdirmək məqsədilə pul alan vəzifəli şəxslərin qanunsuz əməlləri ifşa edilib.***

"Unikal" xəbər verir ki, Bakı şəhər İcra Hakimiyyətinin tərkibində olan Yaşıllaşdırma Müəssisələrinin Baş İstehsalat İdarəsinin əməkdaşı Anar Abbasəliyev və Yaşıllaşdırma Təsərrüfat Birliyinin əməkdaşı Natiq Abbasovun paytaxtda yerləşən iaşə obyektlərinin ərazisindəki ağacların qanunsuz kəsilməsinə köməklik göstərilməsi vədi ilə vətəndaşlardan pul almalarına əsaslı şübhələr müəyyən edilib. Həmçinin, Natiq Abbasov tələb etdiyi pulun bir hissəsini alanda cinayət başında yaxalanıb.

Hər iki fakt üzrə Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb.

Qeyd olunan şəxslərə Cinayət Məcəlləsinin 178.2.3 (qulluq mövqeyindən istifadə etməklə dələduzluq), 32.4, 312.1-ci (rüşvət verməyə təhrik etmə) və digər maddələri ilə ittiham elan edilib, barələrində məhkəmənin qərarı ilə vəzifədən kənarlaşdırılmaqla ev dustaqlığı qətimkan tədbiri seçilib.

Hazırda cinayət işləri üzrə istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Deputatlar Heydər Əliyevin irsini təbliğ edəcəklər

***Milli Məclisin deputatları Ulu Öndər Heydər Əliyevin zəngin irsini təbliğ edəcəklər.***

"Unikal" xəbər verir ki, bu barədə parlamentin Aqrar siyasət komitəsinin 2023-cü il üzrə yaz sessiyasının qanunvericilik işləri planında əksini tapıb.

Sənəddə qeyd edilib ki, sessiya ərzində 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar yerlərdə görüşlər keçirmək və Ulu Öndərin zəngin irsinin təbliğ etmək nəzərdə tutulur.

# Cahangir Əsgərov da "yolun sonuna" çatdı

## İctimai fikir birmənalıdır: AZAL rəhbərinin bu postda qalması üçün heç bir səbəb yoxdur

***Yola salmaq üzrə olduğumuz həftə "Azərbaycan Hava Yolları" QSC-nin - AZAL-ın prezidenti Cahangir Əsgərovun vəzifəsindən kənarlaşdırıldığı barədə xəbər yayıldı. "Hazırda AZAL-da yoxlamalar aparılır və təhvil-təslim prosesi gedir. Quruma rəhbərlik QSC-nin birinci vitse-prezidenti Samir Rzayevə tapşırılıb. Yaxın vaxtlarda Əsgərovun vəzifəsindən azad olunması ilə bağlı sərəncamın imzalanacağı gözlənilir" deyə yayılan məlumatda bildirilirdi.***

Bu xəbərə iki gün boyunca AZAL-dan hər hansı reaksiya gəlmədi. Yalnız iki günün tamamında bu məlumatın "cəfəngiyyatdan ibarət olduğuna" dair açıqlama verildi.

Lakin mötəbər mənbələr Vasif Talıbovun ardınca "vurulacaq" növbəti yüksək vəzifəli şəxsin Cahangir Əsgərov olduğu fikrində israrlıdırlar. İddialara görə, məmur korpusundakı "köhnə eşalon"un hələ də kreslosunu qoruyub saxlayan azsayda nümayəndələrindən biri olan Cahangir müəllim üçün təqaüd yolu açıq görünür. "72 yaşlı AZAL rəhbərinin vəzifəsində qalması üçün bir dənə belə səbəb yoxdur. "Azərbaycan Hava Yolları" borc bataqlığındadır və onu düşdüyü indiki durumdan çıxarmağın yeganə yolu bu QSC-də köklü islahatlar aparmaqdadır. Həmin islahatlara isə AZAL-da rəhbər dəyişikliyindən start verilməsi tamamilə məntiqə və məqsədə uyğundur" - deyə qaynaqlar vurğulayırlar.

O da əlavə edilir ki, hazırda "Azərbaycan Hava Yolları" istər cəmiyyətdə, istərsə də media tərəfindən ən çox tənqid olunan qurumlardan biri, hətta, bəlkə də, birincisidir. "Dəfələrlə KİV-də də vurğulandığı, ekspertlər, eləcə də millət vəkilləri tərəfindən belə açıq şəkildə söylənildiyi kimi, vətəndaşları narazı salmaq AZAL-ın, az qala, əsas iş prinsipinə çevrilib. Söhbət ilk növbədə uçuş biletlərinin fantastik dərəcədə baha olmasından gedir" deyən mənbələr daha sonra əlavə edirlər: "Hətta 2021-ci ilin martında bir sıra digər iri dövlət müəssisələrində olduğu kimi, "Azərbaycan Hava Yolları"nda da yaradılan Müşahidə Şurası AZAL-dan məlum şikayətlərin azalmasına gətirib çıxarmayıb. Yadınızdadırsa, həmin vaxt bir sıra iqtisadçı ekspertlər, millət vəkilləri mətbuata açıqlamalarında bildirirdilər ki, sözügedən Şura "Azərbaycan Hava Yolları"nda növbəti 6 ay ərzində praktik olaraq bütün istiqamətlər üzrə xarici şirkətlər cəlb edilməklə, diaqnostik qiymətləndirmələr və təhlillər aparılacaq. Bu mərhələ həmin şirkətlərin fəaliyyətlərindəki səmərəliliyi artırmaq, daha şəffaf, daha qənaətcil, fiskal idarəetmə siyasəti həyata keçirmək məqsədi daşıyacaq. "Ən böyük gözləntilər də odur ki, Müşahidə Şurası yaradıldıqdan sonra, postpandemiya dövründə biz həm "Azərbaycan Hava Yolları"nın təklif etdiyi xidmətlərin, həm də biletlərin qiymətlərinin optimallaşdırılmasını görəcəyik. Bu, turizmin inkişafı baxımından da çox vacibdir" - deyə həmin açıqlamalarda bildirilirdi. Lakin Müşahidə Şurasının fəaliyyətə başlamasından təxminən iki ilə yaxın vaxt keçir, ancaq biz AZAL-ın uçuş qiymətlərində hər hansı optimallaşma, ucuzlaşma hiss eləmirik. Belə görünür ki, Müşahidə Şurası bu QSC-nin rəhbəri Cahangir Əsgərovun anormal qiymət siyasətinə müdaxilə edə bilmir. Deməli, əlac qalır AZAL rəhbərini postundan yola salmağa..."

Azərbaycanın aparıcı mediası, o cümlədən, "Unikal" qəzeti bir neçə ildir "Azərbaycan Hava Yolları"nın borc bataqlığına yuvarlandığı, bu dövlət şirkətinin zərərlərinin və borclarının ilbəil artdığı barədə məqalələr, xəbərlər, təhlillər, müsahibələr, rəylər dərc edir. Ən qəribəsi, anlaşılmazı isə odur ki, bu zərər və borc artımı AZAL-ın dünyanın ən bahalı aviaşirkətlərindən biri olduğu, eyni zamanda hər il dövlət büdcəsindən külli miqdarda dotasiya aldığı, bu da azmış kimi, ölkənin hava nəqliyyatında inhisarçı mövqe tutduğu halda baş verir! Məsələn, Əsgərovun ailəsinin biznes sektorunda ciddi "uğurlar" qazandığı bir vaxtda - 2018-ci ildə "Azərbaycan Hava Yolları" QSC nə az, nə çox düz 208 milyon manat ziyan etmişdi. İllərdir fəaliyyətini zərərlə davam etdirən milli aviaşirkətin 1 yanvar 2021-ci il tarixinə olan hesabatında balansındakı yığılmış zərəri 1 mlrd. 763.92 mln. manata çatmışdı. Yığılmış zərərdən sonra onun kapitalı sıfırın altındadır, yəni kəsir mövcuddur. Çünki AZAL-ın 823.97 mln. manatlıq nizamnamə kapitalı və 160.18 mln. manatlıq əlavə ödənilmiş kapitalı var. Bu da o deməkdir ki, cəmi kapitalı sıfırın altında 779.76 milyon manatdır...



Bir sözlə, əndrabadi situasiya yaranıb: AZAL ilbəil ziyan edir, lakin bunun əvəzində AZAL "şef"inin ailəsi biznesini böyüdür, həm ölkə daxilində, həm də ölkə xaricində ciddi kapital tələb edən sərmayələrə yönəldilir. Bu sərmayələrin qaynağı nədir? Həmin suala nə KİV, nə cəmiyyət heç cür ağlabatan cavab ala bilmir.

Hazırda AZAL-ın ümumi borcunun 1,8 milyard civarında olduğu deyilir. Bu qədər borcun necə yarandığı həqiqətən maraq doğurur: adın dünyanın ən bahalı aviaşirkətlərindən biri kimi hallansın, hər il dövlət büdcəsindən on milyonlarca dotasiya alasan, ölkənin hava nəqliyyatında inhisarçı mövqelərə malik olasan və... zərər edəsən?!

Burada ən azından iki nüans ortaya çıxır. Birinci, qurumda qeyri-şəffaflıq hökm sürür, hesabatlılıq zəifdir, nəticədə gəlirlər nəinki xərcləri qarşılamır, üstəlik, borca meydan açır.

İkinci, AZAL doğru idarə edilmir. Müasir idarəçilik prinsiplərindən uzaqdır, bu halda da nətcə dəyişmir: gəlirlərin xərcləri ödəməməsi azmış kimi rəqəmlərlə ifadəsi ağır borclara gətirib çıxarır.

Hər iki halda eyni nəticə hasil olur, necə deyərlər, "bütün yollar Romaya aparır": Cahangir Əsgərovun "Azərbaycan Hava Yolları"nın rəhbəri postundan kənarlaşdırılması bu QSC-nin gələcəyi baxımından ən düzgün qərardır. Əks halda biz AZAL-ın zərər eləməsi barədə də, onun prezidentinin şəxsi biznesini böyütməsi haqqında da xəbərləri hələ çox oxuyacağıq...

***Sənan Mirzə***

# Böyük güclər Ermənistanı oyuna salıb məhvə sürükləyirlər

## Millət vəkili: “Əgər Ermənistan müharibəyə başlasa, bu, onlar üçün sonunun başlanğıcı olacaq”

***Ermənistan rəsmiləri öz havadarlarına arxalanaraq mövcud durumun uzadılması və münaqişənin tamamilə son qoyulmasına imkan verməyən davranışlarını davam etdirir. Ötən gün Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsində çıxış edərkən revanşist mövqeyini gizlətməyib. Hətta daha irəli gedərək deyib ki, Azərbaycan öz əməllərinə görə cavab verməlidir, izah edilməlidir ki, hamının əməl etməli olduğu beynəlxalq qaydalar var.***

Onun qənaətincə, sanki beynəlxalq hüququ pozan, separatçı meylləri davam etdirən Ermənistandakı hakim rejim deyil. Erməni nazir humanitar vəziyyəti qiymətləndirmək üçün beynəlxalq faktaraşdırıcı missiyanın Dağlıq Qarabağ və Laçın dəhlizinə göndərilməsinin vacibliyini vurğulayıb: ”Artsaxda humanitar böhran günügündən ağırlaşdığı üçün beynəlxalq ictimaiyyətin buna təcili müdaxiləsi zəruridir. Biz kənarda dayanıb insanların siyasi oyunlar və bəlkə də geosiyasi hesablamalar üzündən yavaş-yavaş aclıqdan ölməsinə tamaşa edə bilmərik. Laçın dəhlizinin blokadasını aradan qaldırmağın iki nəzəri variantı var: hərbi və ya diplomatik. Ermənistan ikinci varianta sadiqdir, lakin bu, yalnız beynəlxalq birliyin qəti müdaxiləsi, Azərbaycana güclü təzyiqlər və bu istiqamətdə hiss olunan hərəkətlər olduqda mümkündür. İndi hərəkət etmək vaxtıdır”.



Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın Avropa İttifaqı Parlamentinin Xarici Əlaqələr Komitəsində çıxışına dair mövqeyini ifadə edib. Bildirilib ki, Ermənistan xarici işlər nazirinin Laçın yolu ətrafında yaranmış vəziyyətin müharibə yolu ilə həll edilməsi təklifi ciddi təhdiddir.

Qeyd olunub ki, Ermənistan rəhbərləri tərəfindən müharibəyə çağırış ideyalarının yeni olmadığı məlumdur: ”Hələ 2019-cu ildə Ermənistan Baş naziri Nikol Paşinyan “Qarabağ Ermənistandır”, keşmiş müdafiə naziri Tonoyan isə “yeni torpaqlar üçün yeni müharibə” barədə fikirlər səsləndirib. Xarici işlər naziri Mirzoyanın hərbi həll variantını təklif etməsi Ermənistanın tarixdən dərs çıxartmadığını və 30 il müddətində Azərbaycan ərazilərini işğalda saxlamasının nə ilə nəticələndiyini hələ də anlamadığını göstərir. Ermənistan tərəfinin bu avantürasının qarşısının alınması zəruridir”.

Məlumatda deyilib ki, Azərbaycanın sülh sazişi imzalamaq təklifinə 8 aydan artıq müddətdə cavab verməyən, daha sonra sülh sazişinin imzalanmasını adətən uzun müddət çəkən delimitasiya prosesi ilə şərtləndirən, müəyyən edilməmiş sərhəd bölgəsində demilitarizasiya zonasının yaradılmasını təklif edən Ermənistanın müxtəlif bəhanələrlə sülh sazişinə maneçilik törətməsi, müəyyən elementləri qabardaraq danışıqlar prosesinin mahiyyəti barədə çaşqınlıq yaratması narahatlıq doğuran məqamdır və Ermənistanın addımlarını bir daha ölçüb-biçməsi zəruridir.

Məsələ ilə bağlı deputat Elman Nəsirov ”Unikal”a açıqlama verib: ”Azərbaycan xalqının belə bir misalı var: ”İtdən soruşurlar ki, niyə hürürsən? Deyir ki, qorxuduram. Soruşurlar ki, bəs niyə quyruğunu yeləyirsən? Deyir ki, axı özüm də qorxuram”. Ermənistanın siyasi rəhbərliyi də oxşar bir vəziyyətdədir. Onlar bizə ”xox” gəlmək, qorxutmaq istəyirlər. Guya ki, onlar ermənipərəst dairələrin dəstəyi ilə ürəkləniblər, amma bunlar hamısı boş şeydir. Azərbaycanın işi haqq işidir. Azərbaycan tarixi qələbəsinə imza atmış dövlətdir. Bizim Ordumuz 2020-ci ildə qələbə qazandığı vaxtdan da güclü və qüdrətlidir. İndi biz ən müasir silahlara malikik. Keçən müddət ərzində biz həm ən müasir silahları əldə etmişik, həm də özümüzün müdafiə sənayemiz daha da güclənib. Biz yeni silahlar istehsal edirik və bu istiqamətdə yeni zavodlar da istifadəyə veriləcək”.

Millət vəkili onu da qeyd edib ki, əgər Ermənistan müharibəyə başlasa, bu onun sonunun başlanğıcı olacaq. Onun sözlərinə görə, Ermənistanın müharibəyə başlamaq üçün siyasi qərar qəbul etməsi Ermənistan hakimiyyətinin növbəti bağışlanmaz səhvi ola bilər: “Necə ki, 2020-ci ilin 27 sentyabrında həmin səhvə imza atdılar və kapitulyasiya aktını imzalamağa məcbur oldular. Onlar ikinci dəfə belə bir səhvə imza atsalar, mənə elə gəlir ki, Ermənistanı heç kim xilas edə bilməyəcək. Prezident İlham Əliyevin də dediyi kimi, telefon zənglərinin və xahişlərin təsiri olmayacaq. Ermənistanın siyasi rəhbərliyi, istər Paşinyan, istərsə də Mirzoyan olsun, onlar öz ağıllarını başlarına yığsınlar. Bilsinlər ki, Ermənistanın gələcək taleyi ancaq və ancaq sülh danışıqlarından keçir. Müharibə isə Ermənistan üçün fəlakətdir. Azərbaycan müharibəni udub, indi biz sülh prosesini udmaq istiqamətində səylərini davam etdirir. Biz sülhü hədəf olaraq seçmişik və buna nail olacağıq”, - deyə o bildirib.

Milli Cəbhə Partiyasının sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə Azərbaycanla Ermənista arasındakı münasibətlə bağlı fərqli prizmadan münasibət bildirib. Onun fikrincə, Amerikanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında çərçivə sazişinin imzalanması mümkündür. M.Əsədullazadə düşünür ki, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi üçün yeni sənəd hazırlanır: ”Son günlər Ermənistan rəsmilərinin açıqlamalarına baxmayaraq, yeni razılaşma istiqamətində də iş gedir. Lakin Ermənistan tərəfi sülh müqaviləsinə imza atmağa tələsmir və ölkədə konstitusiya referendumu planlaşdırır. Vaşinqtonun normallaşma prosesində aktivliyi Rusiyanı regiondan çıxarmaq və Cənubi Qafqazda möhkəmlənməkdir. Paralel olaraq Avropa İttifaqının ”mülki missiyası”nın da regiona göndərilməsi Ermənistan-Rusiya əlaqələrinin pozulmasına xidmət edir. Burada Fransanın pozuculuq fəaliyyəti də mümkündür. Rəsmi Bakını narahat edən əsas məqam budur. Bakı Vaşinqtonla birgə Fransanın pozuculuğunun da qarşısını ala bilər. Lakin çərçivə sazişinin bağlanması üçün liderlərin görüşü təşkil edilməlidir. Şübhəsiz, çərçivə sazişinin imzalanmasının nə qədər effektli olacağı da sual doğurur. Ermənistan rəhbərliyi Azərbaycanın tələblərini praktiki həyata keçirməlidir ki, ortada nəticə olsun. Yox əgər Ermənistan Qərbin ona verdiyi siyasi və təhlükəsizlik dəstəyindən Azərbaycana qarşı siyasi təzyiq kimi istifadə edəcəksə, yeni hərbi toqquşma qaçılmaz olacaq”.

***Murad İbrahimli***



## Vitse-spikerdən Erkin Qədirliyə etiraz: “Ermənıyə dəstək verdin”

***“Erkin Qədirlinin çıxışı məni çox təəccübləndirdi”. Bunu Milli Məclisin sədr müavini Fəzail İbrahimli deyib.***

Vitse-spikerin sözlərinə görə, deputat Erkin Qədirli Azərbaycanda parlament seçkilərinin qeyri-demokratik keçirilməsi ilə bağlı fikirlər səsləndirməklə ermənilərə dəstək olub: “O, özünü savadlı, hüququ yaxşı bilən şəxs kimi təqdim edir. Belə fikri necə söyləyə bilər? Onun sözlərinin həm siyasi, həm də hüquqi tərəfləri var. Avropa Şurasında təmsil olunan Erkin Qədirli saxta yolla seçildiyini deyir. Absurddur. Sən orada hansı üzlə Azərbaycanın əleyhinə danışırsan? Erməniyə dəstək verdin. Sabah bir erməni deputatı sənə deyəcək ki, nə danışırsan, ay saxtakar, sən axı saxta yolla seçilmisən. Erkin Qədirli heç bir əsas olmadan parlament seçkilərinin guya saxta yolla keçirildiyini iddia edir. Düşünürəm ki, məsələnin hüquqi tərəfi işə düşməlidir”.

F.İbrahimli hesab edir ki, istintaq orqanları deputat Erkin Qədirli barəsində araşdırma aparmalıdır: “İstintaq orqanları tərəfindən onun seçki prosesi araşdırılmalı, haqqında ciddi tədbir görülməlidir. Milli Məclis seçkilərinə və deputatların seçkilərinə yaxdığı şər-böhtana görə İntizam Kommisiyası öz sözünü deməlidir. O, guya özünün çox təbii, dürüst olduğunu göstərməyə çalışır və müxalifət obrazı yaradır.

Sən əgər saxta yolla deputat seçilmisənsə, tribunaya çıxıb deyərdin ki, “mən saxtakarlıqla verilən mandata etiraz əlaməti olaraq parlamentdə iştirak etməkdən imtina edirəm”. Bundan sonra obyektiv adam olardın. Necə deyərlər, sən həm yeyirsən, həm də danışırsan”(modern.az)

Qeyd edək ki, deputat Erkin Qədirli Azərbaycanda parlament seçkilərinin qeyri-demokratik keçirilməsini iddia edib. Onun açıqlaması həmkarlarının etirazına səbəb olub. Bəzi parlamentarilər onu deputat mandatından imtina etməyə çağırıblar.

## "Yarmarkalarda kəndlidən söhbət gedə bilməz" - Deputat

***”Kənd təsərrüfatı yarmarkaları var. Özüm də bir neçə dəfə orada olmuşam”.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsinin bu gün keçirilən iclasında deputat Emin Hacıyev deyib.

Deputat bildirib ki, həmin yarmarkalarda kəndlidən söhbət gedə bilməz, ortada vasitəçilər var və onlar da qiymətlərə təsir edir.

***Anar Kəlbiyev***

# Prezident onları təltif etdi - SİYAHI



***Prezident İlham Əliyev Milli Aviasiya Akademiyasının bir qrup əməkdaşının təltif edilməsi haqqında sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncama əsasən, milli aviasiya kadrlarının hazırlanması sahəsində xidmətlərinə görə aşağıdakı şəxslər **"Tərəqqi" medalı ilə təltif ediliblər:**

Dadaşov Fuad Həsən oğlu

Mahmudlu Firdovsi Ələddin oğlu.

Eyni zamanda milli aviasiya kadrlarının yetişdirilməsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilib:

**"Əməkdar müəllim"**

Abdullayev Pərviz Şahmurad oğlu

Məcidova Valentina Qurban qızı

**"Əməkdar mühəndis"**

Musayev Aydın Ərəstun oğlu

Nəbiyev Rasim Nəsib oğlu

Nizamov Telman İnayət oğlu.

# Dövlət Gömrük Komitəsində əməliyyat - Saxlanılanlar var



***Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Dövlət Gömrük Komitəsində anti-korrupsiya əməliyyatı keçirib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, hazırda əməliyyat Aksizli Mallar üzrə Baş Gömrük İdarəsində davam edir. Saxlanılanlardan biri həmin idarənin inspektoru Şahin İsgəndərovdur.

Bundan əlavə, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Şimal Ərazi Baş Gömrük İdarəsinin Şirvanlı gömrük postunda əməliyyat keçirib.

Əldə etdiyimiz məlumata görə, əməliyyat zamanı postun inspektoru Cavid Məmmədov saxlanılıb.

***Orxan Həsənli***

# Yoluxanların sayı açıqlandı



***Azərbaycanda son sutkada koronavirus infeksiyasına 43 yeni yoluxma faktı qeydə alınıb, 45 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada COVID-19-dan vəfat edən olmayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qazet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:1700

# Abel Məhərrəmov Qərbi Azərbaycan İcmasına çağırılmamasından gileyləndi

***"Məni indiyə qədər Qərbi Azərbaycan icmasının tədbirlərinə dəvət etməyiblər. Ola bilər ki, yaddan çıxmışam və yaxud nəzərdən qaçmışam".***

Bunu "Unikal"a açıqlamasında yeni yaradılan Qərbi Azərbaycan İcmasının iclaslarında görünməyən Bakı Dövlət Universitetinin keçmiş rektoru Abel Məhərrəmov deyib.

"Qərbi Azərbaycandan olduğum yaddan çıxırsa, bu, mənim günahım deyil. Mənim anam ilk azərbaycanlı qadındır ki, Ermənistanın əməkdar müəllimidir.

Ümid edirəm ki, yaxın günlərdə yada düşərəm, dəvət edərlər", - deyə o bildirib.

# İlham Əliyev Yunanıstanın yeni səfirinin etimadnaməsini qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Yunanıstan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Xristos Kapodistriasın etimadnaməsini qəbul edib.***



Səfir Xristos Kapodistrias etimadnaməsini dövlət başçısına təqdim edib. Prezident İlham Əliyev səfirlə söhbət edib. Dövlət başçısı Cənub Qaz Dəhlizinin ölkələrimizi birləşdirdiyini və bütöv bir regionun inkişafına töhfə verdiyini, ümumi maraq kəsb edən layihə olduğunu bildirib. Həmçinin Yunanıstanın Azərbaycan qazının digər Avropa ölkələrinə çatdırılmasında tranzit ölkə rolunu oynadığını qeyd edib.

Prezident İlham Əliyev Yunanıstan ilə Bolqarıstan arasında interkonnektorun açılış mərasimində iştirakını məmnunluqla xatırlayıb və bu layihənin Avropanın enerji təhlükəsizliyinə töhfə vermesinin əhəmiyyətini vurğulayıb.

Dövlət başçısı ölkələrimiz arasında enerji ilə bərabər, digər sahələrdə də əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu deyib.

Səfir Xristos Kapodistrias Azərbaycanda fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirib, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd edib. Diplomat xüsusilə elm, təhsil, mədəniyyət, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğunu vurğulayıb.

Görüşdə həmçinin Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığı məsələlərinə də toxunulub, Yunanıstanın Azərbaycanın hər iki təsisatla əlaqələrinin genişləndirilməsini dəstəklədiyi qeyd olunub.

Söhbət zamanı regional məsələlərə toxunularaq, Azərbaycan ərazisində Laçın-Xankəndi yolunda baş verən hadisələr haqqında məlumat verilib, yolun guya bağlı olması barədə Ermənistan tərəfinin iddialarının tamamilə əsassız olduğu bildirilib.

Dövlət başçısı qeyd edib ki, dekabrın 12-dən indiyədək Rusiya sülhməramlılarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə mülki şəxslərin və mülki yüklərin, 1000-ə yaxın nəqliyyat vasitəsinin bu yolla hər iki istiqamətdə hərəkəti təmin olunub.

# Baş nazir partiyalarla bağlı sərəncam verdi

***Siyasi partiyaların maliyyə hesabatının forması və qaydası hazırlanacaq.***

"Unikal" xəbər verir ki, bu, Baş nazir Əli Əsədovun müvafiq sərəncamında əksini tapıb.

Sərəncama əsasən, Ədliyyə Nazirliyi İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı, icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ilə razılaşdırmaqla, siyasi partiyaların qəbul etdikləri ianələrin məbləği və ianəni vermiş şəxslər, həmçinin Qanunda nəzərdə tutulmuş hallar barədə məlumatların təqdim edilməsi qaydasının layihəsini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

Maliyyə Nazirliyinə Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) və Mərkəzi Seçki Komissiyası ilə razılaşdırmaqla, siyasi partiyanın



maliyyə hesabatının formasını, məzmununu və təqdim edilməsi qaydasının layihəsini iki ay müddətində Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.

# TƏBİB qripə qarşı vaksin vurdurmaq istəyənlərə çağırış etdi

***"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsdə (TƏBİB) əməkdaşlar üçün vaksinasiya aparılıb.***

"Unikal" xəbər verir ki, bu barədə qurumun mətbuat xidməti məlumat yayıb. TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov, icraçı direktorun müavini Araz Nəsirov, struktur bölmə rəhbərləri və əməkdaşlar qripə qarşı vaksin olunublar.

"İnfluenza el arasında qrip olaraq tanınan xəstəlikdir. Xəstəlik özünü qızdırma, burun axması, baş və boğaz ağrıları, yorğunluq, quru öskürək kimi simptomlarla biruzə verir və adətən simptomatik müalicə olunur. İnfluenza virusuna qarşı effektivliyi sübuta yetirilmiş vaksinlər mövcuddur və ildə bir dəfə peyvənd olmaqla yüksək risk qrupuna daxil olan şəxslərdə ağırlaşma və ölüm hallarının qarşısını almaq mümkündür", - deyə qurum bəyan edib.



Hazırda TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrində influenza virusuna (qrip) qarşı vaksinasiya aparılır. Səhiyyə Nazirliyi tərəfindən alınan vaksinlər Niderland istehsalıdır. Ötən ilin dekabr ayının 15-dən etibarən ölkə üzrə TƏBİB-in tabeliyindəki tibb müəssisələrində 20 701 nəfər qrip xəstəliyinə qarşı vaksin olunub. Bakı şəhəri üzrə bu rəqəm 4 862 nəfər təşkil edib. Şəmkir, Gəncə, Sumqayıt, Mingeçevir, Zaqatala, Göyçay, Ağdaş, Bərdə, Salyan və Tovuz rayonları vaksin olunan şəxslərin sayına görə ilk onluqda qərarlaşır. Qax, Gədəbəy və Saatlı rayonlarında vaksin olunanların sayı digər rayonlarla müqayisədə daha azdır.

Qripə yoluxan şəxslərə təcrid qaydalarına əməl etmələri, vəziyyətləri kəskinləşdikdə həkimə müraciət etmələri tövsiyə olunur. Həssas qrupa daxil olan şəxslər isə (hamilə qadınlar, uşaqlar, xroniki xəstəliyi olanlar, yaşlılar) dərhal həkimə müraciət etməli və nəzarətdə olmalıdırlar.

Vaksin vurdurmaq istəyən şəxslər vaksin üçün qeydiyyatda olduqları TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrinə müraciət edə bilərlər.

Qeyd edək ki, 2022-2023-cü il qış mövsümü üçün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən Avropa regionunda influenza epidemiyası elan olunub.

# Prezident Fransanın yeni səfirinə Laçın-Xankəndi yolundakı vəziyyətdən danışdı

## İlham Əliyev: "Ermənistan əsassız iddialar irəli sürür"

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Fransa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Ann Buayonun etimadnaməsini qəbul edib.***

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra dövlət başçısı səfirlə söhbət edib. Prezident İlham Əliyev Azərbaycan ilə Fransa arasında diplomatik əlaqələrin qurulmasının keçən il 30 illiyinin qeyd olunduğunu vurğulayıb. Dövlət başçısı ötən müddət ərzində iki ölkə arasında diplomatik əlaqələrin zəngin tarixinin olduğunu diqqətə çatdırıb.

Azərbaycan Prezidenti qarşıdakı dövrün ikitərəfli əlaqələrin inkişafı və beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əməkdaşlıq baxımından daha da səmərəli olacağına ümidvarlığını ifadə edib.



Səfir Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Fransaya səfərini xatırladı, ölkəmizdə səfir kimi fəaliyyəti dövründə Azərbaycan ilə Fransa arasında münasibətlərin inkişafına töhfə vermək üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Söhbət zamanı regional məsələlərə də toxunuldu. Dövlətimizin başçısı son dövrlərdə Azərbaycan ərazisində Laçın-Xankəndi yolunun guya bağlanması barədə Ermənistanın əsassız iddialar irəli sürdüyünü qeyd edərək, bu iddiaların tamamilə yalan və cəfəng olduğunu dedi. Prezident İlham Əliyev bildirdi ki, Rusiya sülhməramlılarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə mülki təyinatlı yüklərin və mülki şəxslərin bu yolla daşınması təmin edilir. Dekabrın 12-dən etibarən 1000-ə yaxın nəqliyyat vasitəsinin bu yol ilə hər iki istiqamətdə keçidi təmin olunub.

Dövlətimizin başçısı Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasının və ölkəmizin bu yataqlar üzərində daimi monitorinqinin təmin edilməsinin vacibliyini vurğuladı.

Prezident İlham Əliyev səfirə Azərbaycandakı diplomatik fəaliyyəti dövründə uğurlar arzulayıb.

# Vilayət Eyvazov Qəbələdə sıra baxışı keçirdi

***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq yanvarın 25-də və 26-da Qəbələ Rayon Polis Şöbəsində növbəti qəbul keçirib.***

"Unikal" xəbər verir ki, nazir əvvəlcə Qəbələ şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib. Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarından qəbula gələn 104 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının Qəbələdə yerləşən hərbi hissəsinə gedib. Nazir orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Nazir V.Eyvazov hərbi qulluqçuların kazarma-məişət şəraiti ilə maraqlanıb, həmçinin silah təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə yaxından tanış olub.

Sonra daxili işlər nazirinin rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib.

Sonda general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.



Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 34-ü Vətən müharibəsi iştirakçısı, 3-ü isə şəhid ailələrinin üzvləri olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 131 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# İpoteka və Kredit Zəmanət Fondu ilə bağlı fərman

***"Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 29 nömrəli Fərmanında dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev fərman imzalayıb. Dəyişikliyə qədər Nazirlər Kabineti 2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək sahibkarlar tərəfindən banklar-



dan manatla alınan kreditlər üzrə hesablanmış faizlərə görə 2019-2025-ci illərdə subsidiyaların verilməsi üçün tələb olunacaq vəsaitin həcmini Fond ilə birlikdə müəyyənləşdirib, müvafiq illərin dövlət büdcəsi layihələrində nəzərə alınmasını təmin etməli idi.

Yeni fərmana əsasən, Nazirlər Kabineti 2018-ci il yanvarın 1-dən 2024-cü il dekabrın 31-dək sahibkarlar tərəfindən banklardan manatla alınan kreditlər üzrə hesablanmış faizlərə görə 2019-2027-ci illərdə subsidiyaların verilməsi üçün tələb olunacaq vəsaitin həcmini Fond ilə birlikdə müəyyənləşdirib, müvafiq illərin dövlət büdcəsi layihələrində nəzərə alınmasını təmin etməlidir.



# Əli Əhmədovla bağlı sərəncam imzalandı

***Əli Cavad oğlu Əhmədov "Şərəf" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncama əsasən, o, Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirakına və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə təltif olunub.

Qeyd edək ki, Ə.Əhmədov 1953-cü il yanvarın 27-də anadan olub. Sabah onun 70 yaşı tamam olur.

# "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edildi

***"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev müvafiq qanunu imzalayıb.

Dəyişikliyə əsasən, aşağıdakı məzmunda 20.0.23-cü maddə əlavə edilib: "siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı - 2023-cü il yanvarın 1-dən 2 il müddətinə".

Bundan başqa, dövlət başçısı "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2022-ci il 27 dekabr tarixli qanunun tətbiqi ilə əlaqədar fərman imzalayıb.

Müəyyən edilir ki, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.23-cü (hər iki halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

Həmin Qanunun 20.0.23-cü maddəsində "orqan (qurum)" dedikdə birinci halda Nazirlər Kabineti, ikinci halda Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.

# Nazirlik rəsmisi ərzaq məhsullarının bahalaşmasından danışdı

***"Bu gün dünyada gedən geosiyasi vəziyyət, eləcə də qlobal iqlim dəyişmələri ərzaq məhsullarının bahalaşmasında özünü göstərir. Kənd Təsərrüfatı Nazirliyi bu istiqamətdə işlər görür".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsinin iclasında Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan İstifadəyə Nəzarət şöbəsinin müdiri Firudin Tağıyev deyib.

Şöbə müdiri bildirib ki, ərzaqlıq buğdanın stimullaşdırılmasına dair fərman imzalanıb: "Bizim əsas asılılığımız buğda idxalı ilə bağlıdır. Pivot suvarma sistemi tətbiq edən fermerlər nazirliklə müqavilə bağlayıb ərzaqlıq buğda istehsal etdiyi təqdirdə onun hər tonuna 100 manat əlavə məhsul subsidiyası əldə edəcək. Bu, ciddi təşviqdir və buna maraq var. Birinci mərhələdə 23 500 hektar müəyyənləşdirərək Nazirlər Kabinetə təqdim etmişik. Bu gün ölkəmizdə 56 min hektarda pivot suvarma sistemi tətbiq olunur. Bu, su qıtlığı yaşayan ölkə kimi bizim üçün çox vacibdir. Beş il ərzində 56 min hektarın 200 minə çatdırılması hədəflənir. Ciddi rəqəmdir və maliyyə yükü deməkdir. Təxmini hesablama aparmışıq ki, bu fərman çərçivəsində dövlətin qoyduğu investisiya təşviqi 1 milyard manatın üzərindədir. Düşünürük ki, bu ciddi şəkildə kənd təsərrüfatının inkişafına töhvə verəcək".

***Anar Kəlbiyev***



## Parlamentdə qaz limiti ilə bağlı dinləmə keçirilsin - Təklif

***Qaz limiti ilə bağlı Milli Məclisdə dinləmələrin keçirilməs təklif edilib.***

"Unikal" xəbər verir ki, bu təkliflə Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin bu gün keçirilən iclasında deputat Nəsib Məhəməliyev çıxış edib.

O bildirib ki, qaz limiti ilə bağlı çoxsaylı müraciətlər olur: "Bəlkə yaz sessiyası çərçivəsində biz qaz istehsalçıları ilə fikir mübadiləsi aparaq. Hesab edirəm biz onlara əhalinin bu sahədə problemini bildirməliyik ki, onlar da özləri üçün strateji plan müəyyən etsinlər, parlamentin bu sahədə mövqeyini bilsinlər".

***Anar***

## Qarabağ iqtisadi rayonuna dair müzakirələr keçiriləcək

***Qarabağ iqtisadi rayonu ərazisinin ekoloji vəziyyətinə dair müzakirələr keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin yaz sessiyası üzrə İş planına daxil edilib.

İş planına, həmçinin, milli prioritetlər çərçivəsində bərpa olunan enerji haqqında qanunun icrasına dair müzakirlər daxil edilib.

## "Sahibsiz itlərin sayı günbəgün artır" - Deputat



***"Bakı və regionlarda sahibsiz itlərlə bağlı ciddi problemlər var. Bu gün ölkədə heyvanlar üçün kifayət qədər sığınacaq yoxdur. Bununla yanaşı, mövcud problemlə birbaşa məşğul olan aidiyyəti qurum da mövcud deyil".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin bu gün keçirilən iclasında deputat Fatma Yıldırım deyib.

Deputat bildirib ki, ölkədə sahibsiz itlərin sayı günbəgün artır: "Sahibsiz heyvanlar hətta insanlara zərər verməyə başlayır. Bununla yanaşı, küçədə qalan heyvanlara da qayğı lazımdır".

Quduzluğa qarşı tədbirlərin görülməsinin vacibliyinə toxunan F.Yıldırım əlavə edib ki, təmsil etdiyi Bərdədən sahibsiz heyvanlarla bağlı kütləvi müraciət olur: "Qadın və uşaqlar axşam saatlarında mövcud problemlərlə bağlı küçəyə çıxmağa çəkinirlər. Dünya ölkələrində məsələnin tənzimlənməsi ilə bağlı təcrübə var. Heyvansevərlər fərdi qaydada sığınacaq açmaq imkanı verilməlidir. Yetəri qədər belə vətəndaşlar var. Sığınacaqlarda könüllü fəaliyyət mexanizmi də qurula bilər".

***Anar Kəlbiyev***

# "Azərbaycan təhsili beynəlxalq təhsillə ayaqlaşmır"

## Ceyhun Məmmədov: "Təhsil sahəsinin idarəçiliyində daha çox təhsilin içində olanlar deyil, bu sahə ilə əlaqəsi olmayan insanlar var"



***Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, deputat Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, təhsildə olan problemlərdən, repetitorluğun getdikcə genişlənməsindən, müəllimlərin əmək haqqının artırılmasından və başqa məsələlərdən danışıb.***

***-Ceyhun müəllim, ötən həftə komitənin iclasında çıxışınız zamanı bildirdiniz ki, Azərbaycan təhsili ildən-ilə inkişafa yox, tənəzzülə doğru gedir. Hazırda təhsilimiz tənəzzülün hansı nöqtəsindədir?***

-Bəli, komitə iclasında çıxışımda təhsildə problemlərin olduğunu bildirdim. Öncə qeyd edim ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın bu sahəyə böyük diqqət, qayğısı var. Belə ki, yeni məktəblər inşa edilir, bir neçəsinin açılışı olub. Onu da qeyd etmək lazımdır ki, son dövrlər Azərbaycan təhsilində bir sıra problemləri açıq görürük. Burada söhbət təhsilin idarəolunmasından gedir. Məktəb-şagird münasibətlərinin düzgün tənzimlənməsi məsələsində problemlər var və bu məsələlərə adekvat reaksiyaları görmürük. Həmçinin, dərsliklərlə bağlı problemlər var. Müəllimlərin bilik və bacarığının artırılması ilə bağlı məsələlər var. Elm sahəsində də eyni problemlər müşahidə olunur. Bir neçə ay keçməsinə baxmayaraq Elm və Təhsil Nazirliyinin akademiyanın onlara verdiyi institutlarla bağlı hansı işlər gördüyü barədə məlumat yoxdur. Universitetlərin bəzilərində irəliləyişlər olsa da, təhsilin keyfiyyətində və məzmununda problemlərin olduğunu görürük. Azərbaycan təhsili beynəlxalq təhsillə ayaqlaşmır. Elektron təhsil sahəsində olan məsələlər var ki, öz həllini tapmır. Elmi məqalələrin səviyyəsi çox aşağıdır, plagiatlıq var. Alimlərin elmi fəaliyyətinin qiymətləndirilməsi, əmək haqqının artırılması ilə bağlı məsələlər öz həllini tapmalıdır. Təhsil sahəsinin idarəçiliyi ilə bağlı deyə bilərik ki, bu sahədə daha çox təhsilin içində olanlar deyil, bu sahə ilə əlaqəsi olmayan insanlar var. Regional təhsil idarələrinin hamısının fəaliyyəti heç də uğurlu deyil. Bəzi problemlər vaxtında həll olunmur. Bu məsələlərə diqqət artırılmalıdır.

***-Orta məktəbin yuxarı siniflərində demək olar ki, dərslər qənaətbəxş deyil. Bunun səbəblərindən biri də repetitorluğun getdikcə genişlənməsidir. Yuxarı siniflərdə oxuyan şagirdlərin böyük hissəsi repetitor yanına gedir. Bu sahənin genişlənməsinin səbəbi nədir?***

-Orta məktəblərdə uşaqların böyük əksəriyyəti repetitorların yanına gedir. Bu sahənin genişlənməsinin səbəbi Elm və Təhsil Nazirliyinin, məktəblərin bu istiqamətdə ciddi addım atmamasıdır. Burada inzibatçılığa ehtiyac var. Ciddi qərarlar qəbul olunmalıdır. Müəllimlərin uşaqları daha çox evdə hazırlamağa meyl göstərməsinin qarşısı konkret şəkildə alınmalıdır. Çünki bəzən müəllimlər dərsləri yaxşı keçmir ki, uşaqlarla əlavə məşğul olsunlar. Müəllimlərin fəaliyyətinə nəzarət gücləndirilməlidir. Eyni zamanda, dərslərin keyfiyyəti artırılmalıdır ki, burada müəyyən irəliləyişləri görək. Çünki məktəblərimizdə dərslərin keyfiyyəti arzuolunan səviyyədə deyil.

***-Tez-tez müəllimlərin əmək haqqı məsələsindən də danışılır. Deputat həmkarlarınızdan da müəllimlərin əmək haqqının az olduğunu bildirənlər olub. Necə düşünürsüz, hazırda müəllimlərin aldığı maaş qənaətbəxşdirmi?***

-Son illər bu istiqamətdə müəyyən dəyişikliklər var. Amma bunun tam yetərli olduğunu deyə bilmərik. Hesab edirəm ki, müəllimlərin maaşı daha da artırılmalıdır. Eyni zamanda, yeni dəyişikliyə əsasən, məktəb direktoru ilə onun müavini arasında maaşlar çox fərqli götürülüb. Burada söhbət şagird sayı 500-dən artıq olan məktəblərdən gedir. Direktorun maaşı müavinindən bir neçə dəfə çoxdur. Hamımız bilirik ki, məktəbdə ən çox yük direktor müavinlərinin üzərinə düşür. Beynəlxalq sistemdə də heç vaxt direktorla onun müavinin maaşı arasında bu qədər fərq olmayıb. Bu, beynəlxalq təcrübəyə də ziddir. Hesab edirəm ki,rəqəm təkcə şagird sayı 500-dən çox olan məktəblərə aid olmamalıdır. Bu, aşağıdan yuxarıya doğru dəyişməli idi. Belə daha ədalətli olardı. Bu böyük fərq mütləq aradan qaldırılmalıdır. Direktor müavinlərinin maaşını artırmalıyıq ki, bu sahəyə maraq artsın. Bu həm də ona görə lazımdır ki, gənclərdə müəllimliyə maraq artsın. Əks halda getdikcə müəllim peşəsinə maraq azalacaq.

***-Son illər dərs zamanı müəllimin şagirdi döyməsi ilə bağlı sosial şəbəkədə bir neçə görüntü paylaşılıb. Doğrudur, burada şagirdlərin də müəllimin dərs keçməsinə mane olduğu hallar müşahidə olunur. Necə düşünürsüz, müəllim şagirdi döyə bilərmi?***

-Uşaqların döyülməsi ilə bağlı problemlər var. Hesab edirəm ki, burada valideynlərin üzərinə böyük yük düşür. Valideynlər məktəblərin işinə çox müdaxilə etməli deyillər. Məktəb, müəllim, valideyn arasında kommunikasiya yüksək səviyyədə qurulmalıdır. Valideyn iclasları müntəzəm keçirilməlidir. Eyni zamanda, geniş maarifləndirmə işləri olmalıdır ki, belə məsələlər vaxtında həllini tapsın. Bu məsələnin ciddi tənzimlənməsinə ehtiyac var. Tez-tez belə hallarla rastlaşırıq ki, bu da təhsili nüfuzdan və gözdən salır. Müəllim-şagird əlaqələrinin düzgün qurulması istiqamətində təbliğat aparmalıyıq. Burada məktəb direktorlarının və müəllimlərimizin də üzərinə böyük vəzifə düşür. Məktəb direktorları seçilərək təyin edilməlidir. Bu işdə dostluq, qohumluq, tanışlıq hallarına yol verilməməli, bunun qarşısı ciddi şəkildə alınmalıdır. Müəllimlər uşaqları döyməkdən çəkinməli, daha çox onlarla dostluq etməlidirlər.

***-Məlum olduğu kimi, Azərbaycanda "Ali təhsil haqqında" qanun layihəsi hazırlanıb. Artıq komitədə baxılmasına razılıq verilib. Bu qanun layihəsində hansı yeniliklər olacaq?***

-Sözügedən qanun üzərində dəfələrlə işlənilib. Demək olar ki, hazırdır. Hesab edirəm ki, müasir dövrün tələblərinə və çağırışlarına uyğun qanun layihəsidir. Digər qurumlar da sənədə rəy verməlidir. Ümid edirəm ki, yaz sessiyasında layihə birinci oxunuşdan keçəcək. Qanunda bir çox məsələlər var. Universitetlərin maliyyələşməsi, distant təhsil, diplomların tanınması, ikili diplom, doktoranturanın bir mərhələdən ibarət olması, sosial yataqxanalar, rektorlar şurasının yaradılması kimi mühüm məsələlər sözügedən layihədə əksini tapıb. Hesab edirəm ki, biz universitetlərə muxtariyyət verməliyik. Bu qanunun qəbul edilməsi təhsilimizdə bir çox qeyri-müəyyən məsələləri tənzimləyəcək.

***Anar Kəlbiyev***

# Hacıbala Abutalıbovla oğlu arasında yeni ixtilaf

## Baş nazirin sabiq müavini və paytaxtın keçmiş meri obyektlərinin bir hissəsini niyə satıb?

***Baş nazirin sabiq müavini və Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) sabiq meri Hacıbala Abutalıbov ailə biznesinə daxil olan bir çox obyektləri satmalı olub. Bu barədə "Unikal"a məlumatlı mənbələrdən bildirilib. İddialara görə, Abutalıbovun əlindən çıxan obyektlər arasında Qış parkında yerləşən "Zambaq", "İnnab", "Palıd" kafeləri var. Bundan başqa, onun Avtovağzal Kompleksinin dayanacağının həyətində inşa olunan 3 mərtəbəli restoranı, paytaxtın Rəşid Behbudov küçəsində - Azərbaycan Dillər Universitetinin yaxınlığında yerləşən 7 mərtəbəli iş mərkəzi, Nərimanov rayonundakı "Yaşıl" bazar kimi obyektlərinin də əlindən alındığı bildirilir.***



Məlumatlarda Hacıbala müəllimin Azərbaycandakı biznesinin önəmli hissəsini əldən çıxarmasında oğlu ilə arasındakı anlaşılmazlıqların önəmli rol oynadığı vurğulanır. "Məsələ burasındadır ki, sabiq merin oğlu İsrafil Abutalıbov (sonrakı adı Abu Bəkr) atasının Azərbaycandakı biznesini idarə eləməkdə maraqlı olmayıb. Radikal dini qruplarla əlaqələrə meyllənən oğul Abutalıbov hazırda yaşadığı Türkiyədə biznesini gücləndirməyə üstünlük verir. Hətta iki il öncə İstanbulun Sultanahmet məhəlləsində dəyəri 20 milyon dollara olan hotel də alıb, bununla da qardaş ölkədəki biznesini daha da gücləndirib" deyən qaynaqlar daha sonra onun atasını çətin vəziyyətdə qoymasına diqqət çəkirlər.

"Belə ki, Oğul Abutalıbov sabiq mer və keçmiş vitse-premyerə heç bir halda Azərbaycanda bizneslə məşğul olmayacağını bildirib" deyə mənbələr əlavə ediblər. Hacıbala Abutalıbov isə oğlunun bu mövqeyi ilə razılaşmaq istəməyib. Lakin onun israrını görüncə razılaşmaqdan başqa çıxış yolu görməyib.

Xatırladaq ki, İsrafil Abutalıbovun adı illərdir ki, mətbuatın gündəmindən düşmür. 2006-cı ildə qəzetlər onun öz bahalı avtomobilində İstiqlaliyyət küçəsindəki elit dükanların birinə girərək qəzəbli halda oradan biri 2 min dollar olan qadın paltarı aldığını, həmin paltarla maşınının şüşələrini və təkərlərini silib nümayişkaranə şəkildə cırdığını və zibil qutusuna atdığını yazırdı. Səbəb də o imiş ki, İsrafil bəyin rəfiqəsi həmin dükandan həmin paltarı almaq istəyib. Amma satıcılar ona paltarı əyninə geyib yoxlamağa icazə verməyib.

Qız bundan qəzəblənərək İsrafil bəyə məlumat verib. Sonrası məlumdur... Bu xəbər yaddan çıxmamış İsrafil Abutalıbovun İngiltərəyə köçməsi xəbəri gəlmişdi. Sabiq nazirlərdən birinin qızı ilə boşanandan sonra İsrafil Abutalıbov uzun müddət Londonda yaşamışdı. Bakıya illər sonra tamam başqa qiyafədə və düşüncədə qayıdan oğul Abutalıbovun hətta atasını işdən çıxmağa məcbur etmək istədiyi barədə xəbərlər yayılmışdı. İddia edilirdi ki, o, vəhhabilər kimi uzun saqqal saxlayır, onlar kimi şalvarının balağını gödəldib. Valideynləri bundan təəccüblənsə və etiraz etsə də, o, heç kimə və heç nəyə məhəl qoymadan düşüncəsindən dönməmişdi. Bildirilirdi ki, əvvəlki dəbdəbəli, əyləncə dolu pompeyvari həyat tərzini dəyişən gənc Abutalıbov evdə valideynləri ilə tez-tez uzun-uzadı söhbət və mübahisələr edir, onu başa düşmələrini istəyir, yaxınlarının da "Allah yoluna gəlməsini" tələb edirdi.

Keçmiş vitse-premyer və sabiq mer oğlu ilə sonradan dil tapsa da, o özünün yüksək vəzifəsini itirdikdən sonra aralarındakı münasibətlərin yenidən gərginləşdiyi deyilir. Son vaxtlar tamamilə "inzivaya" çəkilən Hacıbala Abutalıbovun bütün bu iddialara münasibəti isə məlum deyil. Onun bir sıra obyektlərini satması və bunda oğlu ilə münasibətlərinin yenidən gərginləşməsinin başlıca rol oynadığı barədə deyilənlərə necə reaksiya verəcəyi maraq doğurur.

Yeri gəlmişkən, bəzi iddialara görə, radikal dini qruplara meylli olan oğlu ilə arasında təzədən "soyuq küləklər əsməsi" Hacıbala müəllimi məyus edib. Özünü məzmunundan asılı olmayaraq barəsindəki bütün xəbərlərdən təcrid eləyən ata Abutalıbovun bundan sonra mediadan tamamilə uzaq dayanmaq yolunu seçdiyi vurğulanır.

Yeri gəlmişkən: Baş nazirin müavini postundan təqaüdə göndərildikdən sonra Hacıbala müəllim elmi fəaliyyətini davam etdirəcəyi barədə anons vermişdi. Lakin ona yaxın mənbələr eks-merin hazırda elmi əsər üzərində çalışmadığını deyirlər. Görünür, təqaüd dövrünün ürəyincə keçməməsi Abutalıbovu hər işdən soyudub...

***Toğrul Əliyev***

# Milli Məclisin rəhbərliyi Erkin Qədirlinin məsələsini araşdıracaq



***Ötən gün deputat Erkin Qədirli sensasion açıqlama verib. O, Azərbaycan demokratik seçkinin mövcud olmadığını bildirib.***

Məsələ ilə bağlı Milli Məclisin İntizam Komissiyasının sədr müavini Fəzail Ağamalı "Unikal"a açıqlama verib: "Bu, kifayət qədər əsası olmayan, Azərbaycanda keçirilən seçkilərə böhtan atmaq xarakteri daşıyan açıqlamadır. Mən bunu qınayıram. Onun fikirlərini rədd edirəm, çünki bunun əsası yoxdur. Bu açıqlamanı böyük rəqabətlə və çətinliklə Milli Məclisin deputat mandatını qazanan millət vəkillərinə atılan böhtan kimi qiymətləndirirəm.

Məsələ Milli Məclisin rəhbərliyi tərəfindən araşdırılacaq. Əgər ehtiyac yaranarsa və bununla bağlı Milli Məclisin İntizam Komissiyasına müraciət olunarsa, komissiya bu məsələyə baxaraq öz qərarını qəbul edəcək", - deyə o qeyd edib.

***Murad İbrahimli***

# Əhməd Əhmədovun barəsində qərar verildi



***Naxçıvanın sabiq daxili işlər naziri, general-leytenant Əhməd Əhmədovun kassasiya şikayətinin müddətinin bərpası ilə bağlı müraciətinə baxılıb.***

Ali Məhkəmədə hakim Ələsgər Novruzovun sədrliyi ilə keçirilən iclasda qərar elan olunub. Qərara əsasən, prosessual müddətin uzadılması ilə bağlı ərizə əsassız hesab olunaraq rədd olunub.

Qeyd edək ki, 17 il Naxçıvanın daxili işlər naziri olmuş Əhməd Əhmədov 2020-ci ildə vəzifəsindən azad edilib, həmin il Bakıda saxlanılaraq həbs edilib. Naxçıvan Muxtar Respublika Hərbi Məhkəməsinin hökmü ilə Əhməd Əhmədov xüsusilə külli miqdarda mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə, rüşvət alma və vəzifə səlahiyyətlərini aşma maddələri ilə təqsirli bilinərək 11 il müddətinə azadlıqdan məhrum edilib.

# Röya və Seymur Talıbovun ali təhsil qalmaqalı ilə bağlı rəsmi açıqlama

***Dövlət İmtahan Mərkəzi Naxçıvan Ali Məclisinin keçmiş sədri Vasif Talıbovun oğlu Seymur Talıbovun və müğənni Röya Ayxanın qeyri-qanuni universitetə qəbul olunmaları ilə bağlı yayılan məsələlərə münasibət bildirib.***

"Unikal" xəbər verir ki, qurumun mətbuat katibi Xanlar Xanlarzadə Oxu.az-a açıqlamasında bildirib ki, qəbul qaydalarına əsasən, tam (11 illik) orta təhsili başa vurmaq haqqında dövlət nümunəli sənəd (attestat) almış şəxslər ali təhsil müəssisələrinə qəbul olmaq hüququna malikdirlər:

"Attestat alan və 15 yaşı olan şəxslərin qəbul imtahanlarında iştirakı qaydalara zidd deyil. Hər il qəbul kampaniyasında belə abituriyentlərə rast gəlmək mümkündür. Talıbov Seymur Vasif oğlu da müvafiq qaydalara uyğun olaraq, 2003-cü ildə keçmiş Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi test imtahanında iştirak edib, ödənişli əsaslarla Bakı Dövlət Universitetinin beynəlxalq hüquq ixtisasına qəbul olub. Qeyd edim ki, həmin il keçid balı 419 bal olub".

Qurumdan Röya Ayxan ilə bağlı məsələ cavablandırılmayıb. Əlavə olaraq bildirək ki, R.Ayxan 2004-cü ildə Bakı Dövlət Universitetinin beynəlxalq hüquq ixtisasına qəbul olub.

Xatırladaq ki, Seymur Talıbov Naxçıvan Dövlət Universitetinin prorektoru vəzifəsində çalışıb. Eyni zamanda Naxçıvan MR Ali Məclisinin deputatıdır. Vasif Talıbov istefa verdikdən sonra S.Talıbov da prorektor vəzifəsini itirib.

BDU-dan isə bildirilib ki, universitetin məzunları arasında Röyalə Nəcəfova adlı məzun yoxdur. Qeyd edilib ki, R.Nəcəfova BDU-ya əlavə təhsil üzrə qəbul olunub, lakin sonradan təhsil müəssisəsindən xaric edilib.



# Laçın yolundakı aksiya 46 gündür davam edir

***Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası 46 gündür davam edir.***

"Unikal" xəbər verir ki, 2022-ci il dekabrın 12-də səhər saatlarından başlayan aksiya ötən gecə boyu davam edib. Gənc aktivistlər yüksək fəallıq göstərirlər.

Təhlükəsizlik qaydalarına yüksək səviyyədə əməl olunan toplanış yerində heç bir insident baş verməyib. Etirazçılar bu səhəri də Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə açıblar. Daha sonra vətənpərvərlik ruhunda mahnılar ifa ediblər.

Ekofəallar yolun hər iki tərəfində, hərəkətə maneə törətmədən üzərində Azərbaycan, rus və ingilis dillərində yazılmış plakatlar qaldırıb, şüarlar səsləndirirlər. Aksiya iştirakçılarının tələbləri ilk gündən olduğu kimi, dəyişməz olaraq qalır.

Belə ki, ekofəallar və gənc könüllülər "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Stop ekoterror!", "Bereqite prirodu!", "Gkoüidu net! Monitorinqu da!" şüarlarını səsləndirirlər.

Xatırladaq ki, dekabrın 12-dən etibarən azərbaycanlı eko fəallar, ictimaiyyət nümayəndələri sülhməramlıların postu yaxınlığında etiraz aksiyası keçirirlər. Aksiyada etiraz edənlərin əsas tələbləri Rusiya sülhməramlılarının komandanı Andrey Volkovun gəlməsi, azərbaycanlı mütəxəssislərin montorinq aparılması üçün lazımi şərait yaradılması, ermənilərin Azərbaycan torpaqlarında ekoloji terrora son qoyulması, Ermənistanla sərhəddə Laçın istiqamətində ayrıca sərhəd və gömrük nəzarəti postlarının yaradılması, Azərbaycan ərazisinə qanunsuz silah daşınmasının qarşısının alınmasıdır.

# Keçmiş MTN polkovniki Ali Məhkəməyə müraciət etdi



***Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) dələduzluqda təqsirləndirilən Qusar, Kürdəmir rayon şöbələrinin sabiq rəisi polkovnik Bahadir Qocayev barəsində olan hökmdən kassasiya şikayəti verib.***

Artıq şikayət Ali Məhkəməyə təqdim edilib və hakim Şahin Yusifovun sədrliyi ilə araşdırılacaq.

Məhkəmənin hazırlıq iclasının vaxtı hələlik məlum deyil.

Qeyd edək ki, B.Qocayev bir müddət Lənkəran Dövlət Universitetində (LDU) prorektoru vəzifəsində çalışıb. MTN-in sabiq vəzifəli şəxsi 70 min manatdan çox pulu mənimsəməkdə ittiham edilib. Bundan başqa, onun vəzifədə olduğu vaxt vətəndaş Fazil Alıyevin 60 min manata aldığı evini hədə-qorxu ilə əlindən almaqda da adı hallanıb.

B.Qocayev barəsində cinayət işinin istintaqını Dövlət Təhlükəsizliyi Xidməti aparıb. Ona qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə B.Qocayev 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

# Etibar Pirverdiyev müəmması

## Keçmiş oliqarx "dirilməyin" yeni yolunu tapıb?!

***Azərbaycandakı 26 bankın 25-i 2022-ci il üzrə (yanvar-dekabr) maliyyə göstəricilərini açıqlayıb.***

Belə ki, maliyyə göstəricilərini açıqlamış 25 bankdan 23-ü ötən ili xalis mənfəət ilə, 2-si xalis zərər ilə başa vurub.

2023-cü ili xalis mənfəətlə başa vuran bankların ön sıralarında gələnlərdən biri isə "Express bank"dır. Adıçəkilən bank 12 milyon 400 min manat xalis mənfəət əldə edib.

Xatırladaq ki, "Expressbank" ASC 21 iyun 1989-cu il tarixində təsis olunmuş və uzun müddət "Azərnəqliyyatbank" adı altında fəaliyyət göstərib. Bank öz fəaliyyətini Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 30 dekabr 1992-ci il tarixində verilmiş lisenziya əsasında həyata keçirir. Bankın Səhmdarlarının Ümumi Yığıncağının 01 fevral 2010-cu il tarixli qərarı ilə "Azərnəqliyyatbank" ASC-nin adı dəyişdirilərək "Expressbank" ASC adlandırılmış və Nizamnaməyə müvafiq dəyişiklik 04 mart 2010-cu il tarixində dövlət qeydiyyatına alınıb. Dəyişiklik bununla da məhdudlaşmayıb: bank faktiki olaraq "Azərenerji" ASC-nin sabiq sədri Etibar Pirverdiyevin tam nəzarətinə keçib. Belə ki, bankın əsas səhmdarlarından biri Xammədov Hikmət Hacəmməd oğlu onun qaynıdır. Ən iri payçı "Azenco Group MMC" isə keçmiş "işıq şefi"nin şirkətidir. Elə digər iri payçı - "Enerqoservis MMC" haqqında da bunu demək olar.



Hazırda bankın səhmlərinin ümumilikdə 90 faizi Pirverdiyevin nəzarətinə keçib. Bu isə "Expressbank" 2021-ci ili 10 milyon 569 min manat kimi yüksək məbləğlə ifadə olunan xalis mənfəəti fonunda baş verib.

"Unikal"ın məlumatına görə, sabiq "işıq şefi" vəzifəsini itirdikdən sonra onun bankı böhranlı günlər yaşamağa, zərərlə işləməyə başlamışdı. Hətta adıçəkilən bankın bağlana biləcəyi də gündəmə gəlmişdi.

Lakin bir müddət öncədən başlayaraq "Expressbank"ın maliyyə göstəricilərinin yaxşılaşdığına dair xəbərlər, bu bankın sahibkarlara ən çox dəstək verən banklar arasında liderliyinə dair məlumatlar vəziyyətin dəyişdiyini söyləməyə imkan verir. Hətta ötən ilin yayında "Fitch Ratings" beynəlxalq reytinq agentliyi bir müddət öncə "Expressbank"ın yüksək reytinqini növbəti dəfə təsdiqləmişdi. Belə ki, iqtisadi mühit, müştəri portfelinin dinamikası və keyfiyyəti, artım perspektivləri, şəffaflıq, gəlirlilik, və s. kimi vacib göstəricilər əsasında bankları dəyərləndirən "Fitch Ratings" "Expressbank"ın biznes strategiyası, uğurlu siyasəti, stabil maliyyə göstəricilərinə yüksək qiymət verərək Bankın reytinqini "B" səviyyəli "stabil" proqnozu ilə təsdiq etmişdi.

İndi isə Pirverdiyevə məxsus bankın 2022-ci ili böyük məbləğdə xalis mənfəətlə başa vurması sabiq "işıq şefi"nin artıq bank sektorunda ciddi şəkildə möhkəmlənməyə başladığını göstərir. Bir çox keçmiş məmur-oliqarxların biznesi onlar "vurulduqdan" sonra çökdüyü halda, "Azərenerji"nin sabiq rəhbərinin öz mövqelərini möhkəmlətməyə başlaması suallara yol açır. Belə aydın olur ki, adıçəkilən qurumun keçmiş rəhbəri bir zamanlar həbs olunacağı gözlənildiyi halda bu gün biznes imperiyasını çiçəkləndirmək istiqamətində irəliləyir.

Ehtimal ki, bu, Pirverdiyevin lap öncədən müəyyənləşdirdiyi planın tərkib hissəsidir. ""Azərenerji"nin sabiq rəhbəri belə görünür ki, bütün diqqətini şirkətlərindən birinin, indiki situasiyada konkret olaraq "Expressbank"ın gücləndirilməsinə yönəldib və istəyinə tədricən nail olmaqdadır" deyə qaynaqlar vurğulayırlar. İstisna olunmur ki, bank sektorunda tamamilə güclənən Pirverdiyev növbəti mərhələlərdə əvvəlki biznes qüdrətini bərpa etməyə də həvəslənəcəkdir.

"Hərçənd bu, absurddur. Pirverdiyevin öz vəzifəsini necə itirdiyi məlumdur. Yadınızdadırsa, 2018-ci il iyulun 3-də Mingəçevir şəhərindəki "Azərbaycan İstilik Elektrik Stansiyası"nda baş vermiş qəza ölkəni əməlli-başlı silkələmişdi. Qəza nəticəsində Azərbaycanın enerji sistemində ciddi problemlər yaşanmış, Bakı və Gəncə də daxil olmaqla 39 şəhər və rayonun elektrik enerjisi kəsilmiş, dövlətə və əhaliyə böyük ziyan dəymişdi. O zaman Azərbaycanı zülmətə qərq edən qəzanın səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə elə həmin gün Dövlət Komissiyası yaradılmışdı. Həmin komissiya Pirverdiyevin səhlənkarlığını ortaya qoydu. Ölkə başçısı isə bundan əvvəl keçirilən müşavirədə Pirverdiyevi sərt şəkildə danlamışdı. "Siz, sadəcə olaraq, utanmalısınız, xalq qarşısında, ölkə qarşısında. Bu isti havada insanlara bu qədər əziyyət vermisiniz. İqtisadiyyata nə qədər böyük ziyan vurmusunuz", - deyə Prezident bildirmişdi. Bütün bu baş verənlərdən sonra gözləmək olardı ki, Etibar Pirverdiyev məsuliyyətə cəlb olunacaq. Lakin sabiq "işıq şefi" vəzifəsini itirməklə canını qurtardı. Hazırda isə onun hüquqi məsuliyyət daşımaq əvəzinə şəxsi biznesini yenidən canlandırmağa başlaması anlaşılmazdır" deyə qaynaqlar bildirirlər. Bütün bunları ümumiləşdirdikdə ortaya sadə suallar çıxır: vaxtilə dəmir barmaqlıqlara göndərilməsi gözlənilən sabiq "işıq şefi" bu gün şəxsi biznesini gücləndirməyi necə bacarır? Onun kimi eks məmur-oliqarxların çoxu tamamilə "ofsayd"da ikən, biznes imperiyalarını ya tamamilə, ya da çox böyük ölçüdə itirmişkən Pirverdiyev necə "dirilir", dirçəlir?!

***Sənan Mirzə***

# Vüsal Kərimlinin yeni bəhanəsi

## Həftənin sualı: BNA rəhbərliyi fikirləşirmi ki, vətəndaş 30 qəpiyə gedə biləcəyi yola niyə 1 manat ödəyir?

***Bir müddət öncə keçirilən mətbuat konfransında Bakı Nəqliyyat Agentliyinin (BNA) rəsmisi maraqlı açıqlama ilə çıxış etmişdi. Demişdi ki, paytaxtdakı “1 manatlıq taksilər” insanları ictimai nəqliyyatdan uzaqlaşdırır və yollarda xaotik vəziyyət yaradaraq, tıxaclara səbəb olur”.***

Qurum rəsmisi mediaya onu da bildirib ki, “bu gün paytaxt yollarında nəqliyyat şəraitinin xaotik olmasının başlıca səbəblərindən biri qanunsuz sərnişindaşımaların mövcudluğudur. Onların səbəb olduğu sıxlıq və tıxaclara görə müntəzəm marşrut xətləri üzrə avtobusların hərəkət qrafiki pozulur, avtobuslarla səyahət müddəti artır və sərnişinlər dayanacaqda uzun müddət gözləməli olurlar. Nəticədə sərnişin səyahətini “manatlıq taksilər”də həyata keçirməyi daha uyğun hesab edir. Bu hal şəhərətrafı avtobus xətləri üzrə daha qabarıq formada hiss olunur”.



Düzdür, həm Dövlət Yol Polisi İdarəsi, həm də digər aidiyyatı qurumlar da ”manatlıq taksilərlə” bağlı narazılıqlarını dilə gətirirlər. Bu narazılıqların səbəbi isə anlaşılandır - onların qanunsuz fəaliyyəti. Bu isə dövlət büdcəsini müəyyən qədər gəlirdən məhrum edir.

Lakin BNA-nın manatlıq taksilərdən şikayəti tamamilə anlaşılmazdır. Vüsal Kərimlinin rəhbəri olduğu qurum faktiki olaraq öz səriştəsizliyinə don geyindirmək istəyir və sözügedən taksiləri də bu səbəbdən ictimai qınağa tuş gətirmək istəyir. Guya manatlıq taksilər olmasa, paytaxt nəqliyyatında, o cümlədən sərnişindaşımada illərdir həllini gözləyən problemlər də olmazdı.

Əvvəla, vətəndaşlar haqlı olaraq BNA-ya etirazlarını bildirdilər ki, soyuqda 1 saat dayanacaqda durub avtobus gözləməkdən, ya da ağzınadək sərnişinlə dolu avtobuslara minməkdənsə 1 manata getmək daha sərfəlidir.

İkincisi, əgər vətəndaşlar ictimai nəqliyyatı artıq gedişhaqqı ödəmək bahasına manatlıq taksilərə dəyişirsə, obrazlı desək, ”papağını qabağına qoyub düşünməli olan” məhz Bakı Nəqliyyat Agentliyidir. Bu qurum fəaliyyət göstərməyə başladığı bir neçə il ərzində ictimai nəqliyyatda xidmət səviyyəsini artırmaq üçün nə edib? Ya da ictimai nəqliyyatın səmərəli fəaliyyətinə nail olmaq üçün bütün marşrut xətləri üzrə xüsusi hərəkət zolaqları təşkil etməyin vacibliyindən danışmaq yerinə bu istiqamətdə hansı təşəbbüskarlıq göstərib?

Axı Vüsal Kərimli və ətrafındakılar da bilir, hətta dilə gətirirlər ki, müntəzəm marşrut xətləri üzrə avtobusların sərbəst və maneəsiz hərəkəti tıxac və sıxlığın başlıca səbəbi olan sürətli avtomobilləşmənin qarşısını alacaq. Elə isə BNA bununla bağlı indiyədək hansı plan, yaxud proqram hazırlayıb?

Axı adıçəkilən agentliyin vəzifəsi yalnız problemi söyləmək, ya da həlli yolu göstərmək deyil, konkret iş görməkdir. Problemi dilə gətirən də, həll yolları təklif edən də kifayət qədər ekspert, mütəxəssis var. BNA isə səlahiyyətli qurum olaraq problemin həllinə nail olmaqda mükəlləfdir. Daha da dəqiqləşdirsək, sözlə kifayətlənməyib əməli fəaliyyətə keçməyə borcludur.

Nəhayət, üçüncüsü. Müstəqil ekspertlər KİV-ə açıqlamalarında dəfələrlə vurğulayıblar ki, Bakıda taksilərin çoxluğunu birmənalı olaraq tıxacların səbəbkarı kimi göstərmək reallıqla uyğun gəlmir. Vətəndaşların ictimai nəqliyyatdan uzaqlaşmasına manatlıq taksilər deyil, ictimai nəqliyyatın özünün yetərincə əlçatan olmaması, marşrut xətlərinə tələbdən az avtobus buraxılmasıdır. Hətta gedişhaqqı kartlarının balansını artırmaq üçün belə vətəndaşlar yetərincə problemlə üzləşirlər. Bu bəsit problemi yoluna qoyacaq qədər səriştə nümayiş etdirməyəndən sonra durub manatlıq taksiləri ”günah keçisi” elan eləmək nə qədər asandır, deyilmi?!

BNA-a rəhbərliyindən soruşmaq lazımdır: siz neçə ildir sadalanan problemlərin hansını həll etdiniz, yoluna qoydunuz ki, vətəndaşlar da qeyd-şərtsiz üstünlüyü ictimai nəqliyyata versinlər? Kim 30 qəpiklik yolu 1 manata getmək istəyər, cənablar, heç bu haqda düşünürsünüzmü?

Nəqliyyat eksperti Elmədin Muradlının bir müddət öncə KİV-ə açıqlamasında dediyi kimi, “BNA etiraf edir ki, avtobusların sayı azdır, interval gözlənilmir, sıxlıq yarananda əlavə nəqliyyat verə bilmirlər”, ancaq o biri yandan da manatlıq taksiləri Bakıdakı tıxacların baiskarı kimi qələmə verirlər. Absurddurmu? Əlbəttə, özü də yekəsindən!

Və sonuncusu - dördüncüsü. BNA manatlıq taksiləri ləğv etmək barədə düşünməkdənsə, onların fəaliyyətini legitimləşdirmək, leqallaşdırmaq, beləliklə də, illərdən bəridir sərnişindaşımada aradan qaldıra bilmədikləri problemin həlli istiqamətində real addım atmaq barədə fikirləşsə yaxşı olmazmı? Manatlıq taksilərin fəaliyyəti qanuniləşərsə, bundan dövlətin büdcəsi də qazanar, xeyli yeni iş yeri də yaradılmış olar. Üstəlik, adıçəkilən Agentliyin səriştəsizliyi ucbatından əziyyət çəkən sərnişinlərin - vətəndaşların canı da azca dincələr...

Bəlkə, düz demirik, hörmətli BNA rəhbərliyi?!

***Toğrul Əliyev***



# Azərbaycanda bu tələb aradan qaldırılır

***Milli Məclisin Aqrar siyasət komitəsi Torpaq Məcəlləsinə təklif edilən dəyişikliyi müzakirə edib***

Torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar müvafiq məlumatların daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması tələbi aradan qaldırılır.

”Unikal” xəbər verir ki, bu, Milli Məclisin Aqrar siyasət komitəsinin iclasında müzakirəyə çıxarılan Torpaq Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Qeyd olunub ki, qanun layihəsi “Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 iyul tarixli fərmanının icrası çərçivəsində kənd təsərrüfatı təyinatlı torpaqlardan (o cümlədən örüş, otlaq və biçənək üçün torpaq sahələrindən) istifadə sahəsində mövcud problemlərin aradan qaldırılması, torpaqların icarəyə və istifadəyə verilməsi mexanizminin təkmilləşdirilməsi və bu sahədə nəzarətin gücləndirilməsinin məqsədilə hazırlanıb.

Belə ki, dövlət mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin icarəyə verilməsi mexanizminin təkmilləşdirilməsi və müasir tələblərə uyğunlaşdırılınası, habelə vətəndaş-məmur ünsiyyətinin minimuma endirilməsi və prosesin şəffaflığının artırılması baxımından qeyd edilən fəaliyyətin elektronlaşdırılmasına ehtiyac yaranıb. Layihədə kənd təsərrüfatı təyinatlı torpaq sahələri ilə əlaqədar prosesin “Elektron kənd təsərrüfatı” informasiya sistemi (EKTİS) vasitəsilə həyata keçirilməsi nəzərdə tutulub. Hazırda bu sahə üzrə torpaq istifadəçilərinin və təsərrüfatların qeydiyyatı EKTİS vasitəsilə aparılır, həmçinin dövlət dəstəyinin tətbiq edilməsi üçün zəruri informasiyaların sistemə daxil edilməsi təmin olunur.

Bununla da torpaqların istifadəsi ilə bağlı ayrı-ayrı qurumların işinin EKTİS üzərindən vahid yanaşma ilə əlaqələndirilmiş formada təşkili həyata keçiriləcək, torpaqların icarəyə (istifadəyə) verilməsi ilə əlaqədar müvafiq məlumatların daşınmaz əmlakın dövlət reyestrindən EKTİS-ə real vaxt rejimində ötürülməsi təmin ediləcək, icarəçilərin (istifadəçilərin) rahatlığını təmin etmək üçün müddəti on bir aydan az olan icarə və istifadə hüquqlarının tanınması daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat tələbi götürülməklə birbaşa EKTİS-ə daxil edilməklə tənzimlənəcək.

# Bu torpaqlarda tikinti qadağan olunur



***Yay və qış otlaqlarında tələbata uyğun olaraq çoban evləri, yataqlar, digər mədəni-məişət və istehsal təyinatlı tikililər (əsaslı tikintilər istisna olmaqla) inşa edilə bilər.***

”Unikal” xəbər verir ki, bu, Milli Məclisin Aqrar siyasət komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan Torpaq Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Sənəddə qeyd olunub ki, yay və qış otlaqları (qış otlağının 3 faizə qədər hissəsində yaşıl yem üçün xəsil əkini istisna olmaqla), örüş və biçənəklərin əkin məqsədli istifadəsinə yol verilmir.

Hüquqi və fiziki şəxslər yay və qış otlaqlarından, örüş və biçənək sahələrindən səmərəli istifadə etməli, bitki örtüyünü, su mənbələrini, köç yollarını və mal-qara düşərgələrini qoruyub saxlamalı, baytarlıq-sanitariya qaydalarına və digər tələblərə riayət etməlidirlər.

***Anar Kəlbiyev***

# "Məsuliyyətli şəxslər qanun qarşısında cavab verməlidir" - Deputat



***"Bu gün əsas məsələlərdən biri sənədsiz evlər problemidir. Ona görə də bələdiyyə torpaqları təftiş olunmalıdır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Aqrar siyasət komitəsinin iclasında deputat Azər Badamov deyib.

Deputat bələdiyyə torpaqlarının təftiş olunmasının vacibliyini vurğulayıb: "Buna ehtiyac var. Əgər həmin torpaqlar kənd təsərrüfatı üçün nəzərdə tutulubsa, niyə fərdi evlər tikilib? Burada məsuliyyətli şəxslər qanun qarşısında cavab verməlidir. Bundan başqa, həmin torpaqlarda ev tikənlərin sənəd məsələləri həll olunmalıdır. Bu da minlərlə insanı əhatə edir. Amma qeyd etdiyim kimi, belə halların yaşanmasına məsul olan şəxslər cavab verməlidir".

***Anar Kəlbiyev***

# FHN əhaliyə müraciət etdi

***Fövqəladə Hallar Nazirliyi odsöndürücü balonlardan düzgün istifadə qaydalarına dair əhaliyə müraciət edib.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir: Yanğın baş verərkən ilkin mərhələdə əlaltında olan vasitələrlə onu söndürməklə və ya genişlənmə riskini azaltmaqla daha böyük faciələrin qarşısını almaq mümkündür. Belə vasitələrin ən effektlisi odsöndürücü balonlardır. Təəssüflə bildiririk ki, ilk baxışdan sadə istismar qaydalarına malik odsöndürücü balonlardan bəzən düzgün istifadə edilməməsi və ya balonların növlərindən asılı olaraq təyinatı üzrə tətbiq edilməməsi onların səmərəliliyini azaldır.

Qeyd olunanları nəzərə alaraq, Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək yanğınlar zamanı odsöndürücü balonlardan istifadəyə dair aşağıdakı mühüm tələblərin nəzərə alınmasını tövsiyə edir:

- odsöndürücü balonun üzərində olan yarlıqdakı məlumatla tanış olmaqla həmin balonun hansı yanğınlarda istifadə edildiyini bilmək lazımdır:
- quru kimyəvi tozlu və ya qazla işləyən balonlardan bütün növ yanğınların söndürülməsində;
- tozla işləyən balondan elektrik təsərrüfatında baş verən yanğınların söndürülməsində;
- köpüklü balondan bərk maddə və tezalışan mayelərin yanması zamanı istifadə edilir.
- balonun üstündəki manometrin göstəricisi yaşıldırsa, balon istifadəyə yararlıdır;
- istifadə zamanı balondan xarakterik səs eşidilir.

Odsöndürücü balondan istifadə etmək üçün:

- onun üstündəki plastik möhürü qırın;
- balonun dəstəyinin arasındakı dəmir kilidi çıxarın;
- təhlükəsiz məsafədə duraraq balonun lüləsini birbaşa alova yönəldin;
- dəstəyi yavaş-yavaş sıxın;
- lüləni yuxarı-aşağı, sağa-sola hərəkət etdirərək, alovu tam söndürün.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı "112"yə zəng edin!

# İstehlaka yararsız qida məhsulları məhv edildi



***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) istehlakçı hüquqlarının qorunması və qida təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq tədbirlər görür, həmçinin bu istiqamətdə sahibkarlıq subyektləri ilə birgə əməkdaşlığı davam etdirir.***

AQTA-dan "Unikal"a verilən məlumata görə, "AZ FP CO LTD" MMC tərəfindən Agentliyə daxil olan müraciət əsasında, istehlaka yararsız və istifadə müddəti bitmiş 73 adda, 13,1 ton müxtəlif növ süd məhsulu "EkoSum" MMC-yə məxsus tullantıların zərərsizləşdirilməsi poliqonunda məhv edilib.

AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi üçün mütəmadi olaraq müvafiq tədbirlər həyata keçirir.

# Məmurlarımızın sağalmayan mərəzi

## Böyük məbləğdə büdcə pullarının xərcləndiyi layihələr hələ də bəzi hallarda özünü doğrultmur



***Bu günlərdə İpoteka və Kredit Zəmanət Fondu "Elektron ipoteka və kredit zəmanət" sisteminin çökməsi ilə bağlı açıqlama vermiş, həmin açıqlama isə mütəxəssislərin etirazına səbəb olmuşdu. Onlar bildirirdilər ki, hazırlanmasına iki il ərzində 10 milyon manat xərclənmiş sistemin çöküşünə məntiqi izah vermək mümkün deyil.***

Çox təəssüf ki, Azərbaycan təcrübəsində oxşar hallarla uzun müddətdir rastlaşırıq. Hansısa layihə üçün dövlət büdcəsindən kifayət qədər böyük pullar ayrılır, lakin həmin layihə çox keçmədən ya tamamilə müflis olur, ya yarımçıq qalır, ya da həlledici anlarda onun çoxsaylı qüsurları ortaya çıxır.

Başqa bir nümunə ilə bu fikrimizi daha da qüvvətləndirək: hər il özünüməşğulluq proqramlarına on milyonlarla manat xərclənir. Ancaq həmin vəsaitlərin səmərəliliyi şübhə altındadır. Üstəlik, bu proqrama qoşulanlardan, az qala, həftə səkkiz, mən doqquz hansısa şikayət eşidirik. Məsələn, kifayət qədər ciddi rəqəmlərlə xaricdən alınıb vətəndaşlara verilən mal-qaranın ya xəstə, ya da arıq olması kimi!

Əslində bir neçə il əvvələdək ayrı-ayrı iri məmurlar tərəfindən həyata keçirilən çoxmilyonluq layihələrin qısa vaxtda iflasa uğraması halları daha geniş yayılmışdı. Misal üçün, bir vaxtlar nəqliyyat naziri olan Ziya Məmmədovun 100 milyon manatdan çox pul sərf edərək yaratdığı, lakin qısa vaxtda iflasa uğrayan Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi, yaxud bundan da çox pul xərcləyərək aldığı "London taksiləri" kimi...

Son illərdə ölkədə şəffaflığın və hesabatlılığın artması istiqamətində atılan genişmiqyaslı tədbirlər, büdcə vəsaitlərini təyinatı üzrə, ən əsası isə səmərəli şəkildə istifadə eləməyən məmurlara, vəzifəli şəxslərə yönəlik qanun çərçivəsində verilən cəzalar vəziyyəti müsbətə doğru xeyli dəyişdirib. Ancaq hələ də bir sıra məmurların ictimaiyyət tərəfindən təqdirlə qarşılanan layihələrin icrasında yarıtmazlığa yol verdiyinə dair örnəklərə rast gəlirik. Özü də həmin layihələrin kifayət qədər böyük məbləğlərlə müşayiət olunan maliyyələşməsi üçün dövlət öz səxavətini əsirgəməmişdir halda!

Yenə də nümunəyə müraciət edək və bu dəfə Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) tikilən sosial mənzillərin satışını heç cür doğru-düzgün təşkil edə bilməməsini götürək. Həmin mənzillərin satış prosesi hər dəfə hansısa qalmaqalla müşayiət olunur. Lakin nə əvvəlki proseslərdə yol verilən yanlışlardan nəticə çıxarılır, nə də yaşananlara ağlabatan izah verilir. Kifayət qədər ciddi vəsaitin ayrıldığı sosial mənzil layihəsinin texniki xətalar ucbatından ictimai rəydə müzakirə, mübahisəyə çevrilməsi, o cümlədən, MİDA-nın ünvanına tənqid, irad və ittihamlara gətirib çıxarması qəbulolunandırmı?!

Açıq-aydın görünür ki, bir çox məmurlar ya ümumiyyətlə yerində deyillər, ya da dövlət vəsaitləri ilə necə davranmalı olduqlarını hələ də bilmirlər. Həmin vəsaitlərin şəffaf, şəffaf olduğu qədər də səmərəli xərclənməsinin başlıca borclarından biri olduğunu anlamaqda çətinlik çəkən müəyyən məmurlar ən azı oxşar təcrübədən çıxış etdikləri üçün qanunlar qarşısında cavab vermək məcburiyyətində qalan vəzifəli şəxslərin aqibətindən dərs çıxarmalıdırlar. Unutmamalıdırlar ki, istənilən layihə üçün büdcədən ayrılan hər qəpik belə qiymətlidir, tam şəffaflıq olmadan, işi işbilənə tapşırmadan isə xərclənən pulların səmərəliliyindən danışmaq mümkünsüzdür. Belədə onların həm hüquqi, həm də mənəvi məsuliyyəti yaranır; bunun birindən qurtulsan belə, digərindən xilas ola bilməzsən.

Məsələn, Gənclər və İdman Nazirliyinin keçmiş rəhbərliyi bir zamanlar ölkənin hər rayonunda idman-olimpiya kompleksləri inşa edirdilər. Gərəkli layihə idimi? Əlbəttə! Lakin həmin komplekslərin inşasındakı yeyintilər bir yana, indi onların çoxu fəaliyyətsizdir, səmərəlilikdən uzaqdır, büdcə üzərində ciddi yükə çevrilib. Bunu bir müddət öncə Hesablama Palatasının yoxlaması nəticəsində ortaya çıxan faktlar da bir daha təsdiqlədi. Yüz milyonlarla manatı nə tikinti prosesində doğru xərcləməyən, nə də bu prosesin sonunda ortaya çıxan obyektləri uzun illər boyu səmərəli işlətməyən keçmiş rəhbərlik, hüquq önündə cavab vermədi, ancaq ictimai vicdanda hər zaman qınanıldı, cəmiyyətin mənəvi töhmətindən yaxa qurtara bilmədi.

Bir sözlə, artıq məmurlarımız dövlətin hər qəpiyi ilə dürüst, təyinatı üzrə, şəffaf davranmağı öyrənməklə yanaşı, ayrılan büdcə vəsaitlərinin səmərəliliyi, effektlliyi məsələsində də məsuliyyət daşıdıqlarını anlamalıdırlar. Əks halda, bunu onlara bağışlamaq mümkün olmayacaq - nə hüquq, nə vicdan müstəvisində...

***Toğrul Əliyev***

## 5.3.7. işğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# “Böyük Qayıdış”ın Sus və Zabux mərhələsi

## Yaşar Cəfərov: “Həmin gün ürəyi Zabux həsrəti ilə döyünən neçə insanın yenidən doğulduğu gün olacaq:



***44 günlük Vətən Müharibəsində qazandığımız böyük Zəfərdən sonra işğaldan azad edilmiş bütün ərazilərimizdə bərpa-quruculuq işlərinə start verilib. Hazırda Şuşa, Füzuli, Ağdam və Zəngilan rayonlarında çoxmərtəbəli binaların tikintisinə başlanılıb. Eyni zamanda, burada ərzaq təhlükəsizliyinin təmini üçün 60 min hektar ərazidə səpin aparılıb. İndiyədək işğaldan azad edilmiş ərazilərdə 11 su elektrik stansiyası inşa edilib və onların generasiya gücü 55 meqavata yaxındır. Artıq Zəngilanın ağıllı kəndi olan Ağalıya köçün bir mərhələsi başa çatıb. Yaxın aylarda Ağalıda həyat yenidən canlanacaq. Ağalı sakinləri artıq öz doğma torpaqlarına qayıdırlar. Bu ilin sonuna qədər isə Laçının Zabux və Sus kəndlərindən olan 200-dən çox ailənin öz yurduna qayıdacağı planlaşdırılıb.***

Zabux kənd sakini Yaşar Cəfərov da yüzlərlə Zabuxludan biridir. O deyir ki, Laçın işğaldan azad olunan vaxtdan oraya qayıdacağı günləri sayır. Həmsöhbətimiz deyir ki, işğaldan azad olunmuş torpaqlarda aparılan sürətli quruculuq işləri onu ruhlandırır: “ Sual verdiniz ki, Zabuxla bağlı ən çox hansı xatirələr yadınızdadır? Zabuxla bağlı nə yadımda deyil ki? Bütün xatirələrimi orada qoyub gəlmişəm. Gecələr yuxumda da Zabuxdakı evimizi görürəm”.

Həmsöhbətimiz Sus və Zabuxa köçün Böyük Qayıdışın növbəti mərhələsi olacağını deyir. Onun sözlərinə görə, həmin gün ürəyi Zabux həsrəti ilə döyünən neçə insanın yenidən doğulduğu gün olacaq: “Torpaqsız insan yaşamırmış. Mən Zabuxdan çıxandan sonra yaşadığım günləri ömrümə yazmıram. İllər idi ki, torpağımız, evimiz, məzarlıqlarımız yağı tapdağı altında qalmışdı. İndi sevinirik ki, ölməmiş öz isti ocağımıza qayıdacağıq. Ata-baba ocağımız yenidən közərəcək. Biz elə doğulduğumuz torpaqda dəfn ediləcəyik. Bu arzu kiməsə qəribə gələ bilər. Amma doğulduğu torpaqda dəfn edilmədən ölən nə qədər məcburi köçkün var. Onların hamısının nəşi burada torpağa tapşırılsa da, ruhları o torpaqlarda dolaşır. Biz atalarımızın, babalarımızın ruhlarının dolaşdığı yurd yerlərinə yenidən qayıdıb işığını yandırmalıyıq. Bu arzumuzun həyata keçəcəyinə isə az qalıb”.

Qeyd edək ki, artıq azad edilmiş ərazilərdə yenidənqurma işləri sürətlənib Burada hazırda 7 stansiyanın inşası gedir və bütövlükdə regionda 50-yə yaxın su elektrik stansiyası yaradılacaq. Cəbrayılda isə Günəş Elektrik Stansiyasının tikintisinə başlanılacaq. 100-ə yaxın yaşayış məskəni yenidən qurulacaq. O da qeyd edilib ki, bütün bu görüləcək işlər üçün dövlətimiz 300 milyard manat vəsait ayırıb.

İşğaldan azad edilən ərazilərdə 2026-cı ilədək 34 min 500 mənzil və fərdi yaşayış evi inşa olunacaq. Bu, Prezident İlham Əliyevin imzaladığı Sərəncamla təsdiqlənən “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda əksini tapıb. Tədbirlər Planına əsasən, 2022-2026-cı illərdə Ağdam, Füzuli, Şuşa, Xocavənd, Zəngilan, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Tərtər və Xocalı rayonlarında 34500 mənzil və fərdi yaşayış evinin inşa olunması nəzərdə tutulur. Şuşa rayonunda 7, Ağdam rayonunda 29, Füzuli rayonunda 23, Zəngilan rayonunda 21, Kəlbəcər rayonunda 30, Laçın rayonunda 21, Qubadlı rayonunda 16, Cəbrayıl rayonunda 25, Xocavənd rayonunda 20, Tərtər rayonunda (Suqovuşan və Talış kəndləri daxil olmaqla) 5 məktəbəqədər və ümumi təhsil müəssisəsinin tikintisi və bərpası nəzərdə tutulur. Tədbirlər Planına əsasən, Elm və Təhsil Nazirliyinə 2022-2026-cı illərdə ərazi planlaşdırma sənədlərinə uyğun olaraq, yaşayış məntəqələrində təhsil müəssisələrinin tikintisi və bərpası ilə bağlı təkliflərin hazırlanması tapşırılıb. Hazırda Fövqəladə Hallar Nazirliyinin Dövlət Ekspertiza Baş İdarəsinə 25 nazirlik və komitədən Qarabağda tikiləcək 132 müxtəlif təyinatlı obyektlərin layihə-smeta sənədləri təqdim olunub. Bunu Dövlət Ekspertiza Baş İdarəsinin rəisi Təyyar Hüseynli ”Qarabağın yenidən qurulması çərçivəsində yol, körpü və tunel tikintilərində tətbiq edilən müasir materiallar, mexanizmlər və istifadə qaydaları” mövzusunda keçirilən konfransda deyib. O, bildirib ki, bunların 79-na müsbət rəy verilib, 20 layihədə müəyyən iradlar müəyyənləşdirilib və layihəçilər onların üzərində işləyirlər. Bundan başqa 33 layihə hazırda baxılma prosesindədir”. “Böyük Qayıdışa dair I Dövlət Proqramı”nda “Azərsu” ASC-yə 2026-cı ilin sonuna qədər işğaldan azad edilmiş 97 qəsəbə və kənddə su təchizatı və kanalizasiya sisteminin layihələndirilməsi və tikinti işlərinin yekunlaşdırılması tapşırılıb. Bu barədə qurumun İctimaiyyətlə əlaqələr sektorunun rəhbəri Anar Cəbrayıllı məlumat verib. ”Bu məsələdə koordinasiyanı Dövlət Şəhərsalma və Arxitektura Komitəsi edir. Artıq bu komitədən “Azərsu”ya 28 qəsəbə və kəndin su təchizatının yaxşılaşdırılması layihələrinin hazırlanması ilə bağlı sifariş daxil olub. Bunlara Xocavəndin Hardrut və Tuğ qəsəbələri, Tərtərin Suqovuşan qəsəbəsi və Talış kəndi, Şuşanın Daşaltı kəndi, Laçının 5, Kəlbəcərin 3, Cəbrayılın 3, Qubadlının 3, Zəngilanın 3, Füzulinin 3 və Ağdamın 3 kəndi aiddir. Bu istiqamətdə işlər davam edir. Növbəti mərhələdə digər 69 kənd və qəsəbənin su təchizatının yaxşılaşdırılması layihələrinin icrası ilə bağlı işlər görüləcək. Bundan sonra da hansı ərazi ilə bağlı sifariş olsa, o ərazi üzrə də layihələri hazırlayıb təqdim edəcəyik”, - o qeyd edib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Şuşadan bəhs edən kitab Özbəkistanda təqdim olundu

***Özbəkistan Respublikasının Gənclər İşləri Agentliyində Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə Dünya Gənc Türk Yazarlar Birliyinin həyata keçirdiyi ”Türk dünyasından Şuşaya-Şuşadan Türk dünyasına” layihəsi çərçivəsində çap olunmuş eyniadlı kitabın təqdimatı keçirilib.***

“Unikal” xəbər verir ki, tədbirdə Özbəkistanın gənc oxucuları, media nümandələri, tələbələr iştirak ediblər.

Özbəkistan Respublikasının Gənclər İşləri Agentliyinin direktor müavini Dilnoza Kattaxanova Özbəkistan-Azərbaycan arasında bütün sahələrdə yüksək səviyyəli əməkdaşlıq münasibətlərinin olduğunu vurğulayıb. Bu tədbirin də qardaş xalqlar arasındakı ədəbi-mədəni əlaqələr baxımından yüksək əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

Tədbirin moderatoru, Agentlik direktorunun Dil məsələləri üzrə müşaviri Mehrinaz Abbasova Dünya Gənc Türk Yazarlar Birliyi ilə Özbəkistan gəncliyinin geniş əlaqədə, əməkdaşlıqda olduğunu deyib. Onun sözlərinə görə, Şuşa şəhərinə həsr olunmuş kitabın Özbəkistanda təqdimatı əlamətdar hadisədir.

Dünya Gənc Türk Yazarlar Birliyinin başqanı, layihə rəhbəri İntiqam Yaşar Özbəkistan Respublikası Gənclər İşləri Agentliyinə ev sahibliyi üçün təşəkkür edib. O, Şuşa ilə bağlı həyata keçirilən layihə çərçivəsində çap olunmuş kitabda Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğız Respublikası yazarlarının Şuşa ünvanlı, bir-birindən gözəl yazılarının yer aldığını bildirib.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin əməkdaşı Kərim Məmmədzadə bu kimi tədbirlərin qardaş ölkələr arasında ədəbi-mədəni əlaqələrin inkişaf etməsi baxımından önəmli yerə sahib olduğunu bildirib.

Özbəkistanın gənc yazarınlardan Şəhriyar Şövkət, Məhəmməd Siddiq, Zöhrab Ziya, Əlişir Səbri, Mansur Cumayev və basqaları çıxış ediblər, şeirlər səsləndiriblər.

Tədbirin yekununda layihə rəhbəri, şair-publisist İntiqam Yaşar oxuculara kitab imzalayıb, Özbəkistan kütləvi informasiya vasitələrinin suallarını cavablandırıb.

# Magistraturaya sınaq imtahanı keçiriləcək



***Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il 29 yanvar tarixində ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul olmaq istəyənlər üçün sınaq imtahanı keçiriləcək.***

Bu barədə "Unikal"a DİM-dən bildirilib. Verilən xəbərə görə, imtahan Bakı, Naxçıvan və Gəncə şəhərlərində, ümumilikdə 4 binada təşkil olunacaq. İmtahanda iştirak etmək üçün yazılış internet vasitəsilə aparılıb və 566 nəfər qeydiyyatdan keçib.

İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanacaq və 3 saat davam edəcək. İmtahanda iştirak edəcək bakalavrların nəzərinə çatdırırıq ki, imtahan binasına buraxılış saat 10:45-də başa çatacaq.

İmtahanların idarə olunması üçün 8 imtahan rəhbəri və 56 zal nəzarətçisi ayrılıb.

# Birləşmiş Ərəb Əmirliklərinin səfiri ADU-da

***Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşi ilə görüşüb.***

"Unikal" xəbər verir ki, Səfiri universitetdə görməkdən məmnun olduğunu deyən rektor, tələbələrin ərəb dilinə olan marağı haqqında danışıb, ərəb dilinin tədrisi istiqamətində yeni addımların atılacağını diqqətə çatdırıb.

Görüşdə ADU-da Ərəb dili və mədəniyyəti mərkəzinin açılması istiqamətində fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, mərkəzin açılışından sonra əməkdaşlıq daha sıx və səmərəli olacaq, tələbələr üçün yeni perspektivlər açılacaq.

Fövqəladə və səlahiyyətli səfir Məhəmməd Əl Bluşi dəvət üçün ADU-nun rektoruna təşəkkürünü bildirib, universitetdə ərəb dilinə olan marağı yüksək qiymətləndirib.

Diplomat iki ölkə arasında bütün istiqamətlərdə, o cümlədən, təhsil sahəsində əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırıb, Ərəb dili və mədəniyyəti mərkəzinin açılması üçün bütün zəruri addımların atılacağını qeyd edib.

Sonra ADU-nun rektoru Kamal Abdulla fövqəladə və səlahiyyətli səfir Məhəmməd Əl Bluşini universitetin "Səfir saatı" layihəsi çərçivəsində tələbələrlə görüşə dəvət edib.

# "Bakı KOB evi"ndə informasiya-məsləhət xidmətləri göstərilir

***"Bakı KOB evi"ndə sahibkarlara bir sıra dövlət qurumları, o cümlədən Kənd Təsərrüfatı Nazirliyi tərəfindən aqrar sahənin müxtəlif istiqamətlərinə dair informasiya və məsləhət xidmətləri göstərilir.***

"Unikal" xəbər verir ki, fermerlər aqrar sahə ilə bağlı informasiya və məsləhət xidməti üçün Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM), Xaçmaz və Yevlax KOB evləri, regional ASAN xidmət mərkəzləri ilə yanaşı, "Bakı KOB evi"nə də müraciət edə bilərlər.

"Bakı KOB evi"ndə sahibkarlara kənd təsərrüfatı texnikalarının, gübrə və pestesidlərin satışı, aqrotexniki xidmətlərin göstərilməsi, subsidiyaların verilməsi, güzəştli maliyyələşmə, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınması proseduru və elektron portaldan istifadəyə dair informasiya və məsləhət xidmətləri təqdim olunur.

Sahibkarlar aqrar sahədə informasiya və məsləhət xidmətləri üçün həftəiçi 5 gün (saat 09.00-dan 18.00-dək) "Bakı KOB evi"nə müraciət edə bilərlər.

# Ev təsərrüfatlarının kredit borcu - Sorğu

***Mərkəzi Bankın 30 noyabr 2022-ci il tarixinə olan məlumatına əsasən, bankların kredit portfeli il ərzində 3 milyard manat və ya 18.1% artaraq 19.7 milyard manat təşkil edib.***



Hesabat dövründə bankların kredit portfelində artım əsasən istehlak və ipoteka kreditlərinin artmasından qaynaqlanıb. Belə ki, dövr ərzində kredit portfelinin tərkibinin əhəmiyyətli hissəsini (56%) təşkil edən biznes kreditlərində artım 12.7% və ya 1.2 milyard manat olduğu halda, istehlak kreditləri üzrə 27.7% və ya 1.2 milyard manat, ipoteka kreditləri üzrə isə 21.9% və ya 0.5 milyard manat qeydə alınıb. Bundan əlavə, ilin 11 ayı ərzində bank müştərilərinin sayı 1.1 milyon nəfər və ya 0.9% artaraq 13.6 milyon nəfərə (99%-i fiziki şəxslər olmaqla) çatmışdır.

"Unikal" xəbər verir ki, mövzunun aktuallığını nəzərə alaraq, Sosial Tədqiqatlar Mərkəzi ev təsərrüfatlarının kredit borcuna dair məlumatları öyrənmək məqsədilə növbəti rəy sorğusunu keçirib. Qeyd edək ki, burada kreditin istehlak, ipoteka, kommersiya və digər növləri üzrə təyinatından asılı olmayaraq, ümumi dəyərləndirmə aparılıb. Əldə olunan nəticələrin ilkin təhlilinə görə, "Özünüzün, yaxud ailə üzvünüzün hazırda kredit borcunuz varmı" sualına iştirakçıların 57.7 %-i "bəli", 42.0%-i "xeyr" cavabı verib.

Nəticələrə əsasən, dövlət sektorunda işləyənlərin 75.3%-i özünün və ya ailə üzvünün kredit borcunun olduğunu bildirib. Bu göstərici özəl sektorda (muzdlu) işləyənlər üzrə 60.5%, fərdi əmək fəaliyyəti ilə məşğul olanlar üzrə 53.0% təşkil edib. Nəticələri respondentlərin yaşayış məntəqəsinin növü üzrə nəzərdən keçirdikdə, kənddə yaşayanların 48.7%-i, şəhərdə məskunlaşanların 61.3%-i özünün və ya ailə üzvünün kredit borcu olduğunu ifadə edib.

Sorğu 2022-ci ilin dekabr ayında 18 yaşından yuxarı 384 respondent arasında telefonla müsahibə formasında keçirilib, könüllü iştirak və anonimlik prinsipləri qorunub. Sorğu 12 iqtisadi rayonu əhatə edib və gender balansı təmin edilib. Nəticələrin əminlik intervalı 95%, xəta payı 5%-ə bərabərdir.

# Avtomobilin ekoloji tərzinə müdaxilə edənlərə rəsmi xəbərdarlıq



***Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 yanvar 2014-ci ildə təsdiq etdiyi 2 saylı qərarla ölkəmizə idxal olunan nəqliyyat vasitələrindən atmosfer havasına buraxılan zəhərli maddələr üzrə 2014-cü ilin 1 aprelindən etibarən AVRO-4 ekoloji normaları tətbiq olunur.***

Günümüzdə də qüvvədə olan bu qərar, daha aşağı normalara cavab verən avtomobillərin ölkəyə idxalını qadağan edir.

Lakin məsələ burasındadır ki, ölkə daxilində bəzi ustalar avtomobillərin ekoloji norma tələblərinə müdaxilə edirlər. Belə ki, bəzi servislər maşınların proqram təminatında dəyişiklik etməklə, onları AVRO-3 standartına çevirməyi təklif edirlər.

Sürücülərin sözügedən dəyişikliyə maraq göstərməsinin də bəlli səbəbləri var ki, bu da daha çox katalizator problemlərindən qaynaqlanır.

Məlumat üçün bildirək ki, avtomobil katalizatoru mühərrik sistemindən ixrac olunan işlənmiş qazı neytrallaşdıraraq atmosferə buraxılmasını təmin edən qurğudur. Həmin qurğunun istifadə müddəti orta hesabla 150 min kilometr təşkil edir. Yanacaq keyfiyyətinin aşağı olması, katalizatorun daha tez sıradan çıxmasına səbəb olur və bu da katalizatorun ömrünü 50-60 min kilometr azalda bilir. Katalizatorun sıradan çıxması isə monitorda "check engine" işarəsinin yanmasına səbəb olur.

Ustalar belə katalizatorun yenisi ilə əvəzlənməsini vacib sayırlar. Lakin yeni katalizatora pul xərcləmək istəməyən sürücülər alternativ çözüm variantlarına əl atırlar.

Xüsusilə də katalizatorun yuyulması və ekoloji norma standartının azaldılması üçün müvafiq proqramların yüklənməsi təcrübəsi daha geniş yayılıb.

Qeyd olunan proqramların yüklənməsi katalizatordan qaynaqlanan xəbərdarlıq siqnalı - "check engine" işarəsini aradan qaldırır. Bu isə avtomobilin atmosferə buraxdığı zərərli tullantıların artmasına səbəb olmaqla, ekologiyaya zərər vurur. Eyni zamanda, bu cür müdaxilələr avtomobildə ciddi fəsadların yaranmasına da səbəb ola bilər.

Bəs, sözügedən addıma əl atan sürücü və ustaları hansı cəza gözləyir?

Mövzu ilə bağlı Bizim.Media-ya açıqlama verən Bakı Şəhər Dövlət Yol Polisi (DYP) İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərlinin sözlərinə görə, uzun illərdir ki, avtomobil təmiri ilə məşğul olan şəxslər və sürücülər bu yola əl atırlar:

"Avtomobildən atmosferə buraxılan karbon qazının miqdarının standartlara uyğun olmaması ilə bağlı qanunvericilikdə müvafiq məsuliyyət nəzərdə tutulub. Bu cür variantlara baş vurmaq, sürücünün özünü və avtomobili aldatması kimi qiymətləndirilə bilər. Qanunvericilikdə bu cür müdaxilələrlə bağlı məsuliyyət nəzərdə tutulmayıb. Lakin atmosferə buraxılan karbon qazının miqdarı ilə bağlı normativ tələblər var. Zərərli qazların miqdarının müəyyənləşdirilməsi üçün xüsusi avadanlıq var ki, Dövlət Yol Polisi əməkdaşları həmin avadanlıqla təchiz edilib. Əgər nəqliyyat vasitələrinin atmosferə buraxdığı karbon qazının miqdarı normadan çox olarsa, həmin sürücülər məsuliyyət daşıyır".

Araz Əsgərli əlavə edib ki, bu proses avtomobil təmiri ilə məşğul olan şəxslə sürücünün bir-birini aldatmasından başqa bir şey deyil.

Qeyd edək ki, Dövlət Yol Polisi əməkdaşları tərəfindən atmosferi çirkləndirən avtomobillərlə bağlı mütəmadi olaraq reydlər keçirir. Müvafiq qanunvericiliyin tələbini pozan sürücülər 50 manat məbləğində cərimə olunur.

# Müəllimlərin maaşları nə zaman artacaq?



***Xəbər verildiyi kimi, Səhiyyə Nazirliyinin tabeçiliyindəki müəssisələrin maaşları Vahid Tarif Cədvəli (VTC) ilə tənzimləndiyi üçün onların əmək haqları yanvarın 1-dən etibarən artırılıb. Bununla bağlı, Nazirlər Kabineti tərəfindən qərar da qəbul olunub.***

Bu aydan etibarən VTC dərəcələrində orta hesabla 15.0 faiz artım həmin işçilərin maaşlarına əlavə olunacaq. Bütövlükdə, səhiyyə sektorunda bir sıra müəssisələr səhə nazirliyinə, digərləri isə TƏBİB-ə tabedir. Səhiyyə Nazirliyi tabeçiliyində olan müəssisələrdə çalışan və maaşları VTC ilə müəyyənləşən vətəndaşlarımızın əmək haqqları son artımlara aid olunub.

İndi ən çox verilən suallardan biri də məhz müəllimlərin əmək haqlarının nə zaman artması ilə bağlıdır.

Mövzu ilə bağlı millət vəkili Vüqar Bayramov bildirib ki, Elm və Təhsil Nazirliyinin və TƏBİB-in hər birinin ayrıca əmək haqqı sxemi var. Bu qurumlar maaş məbləği müəyyənləşən zaman əməyin məhsuldarlığı meyarına əsaslanmağa üstünlük verirlər. Bu sektorlarda təşkil edilən qiymətləndirmələr də məhz bununla bağlıdır: yüksək məhsuldarlığa daha çox ödəniş.

"Bu sektorlar üzrə çalışan və əmək haqları minimum səviyyədən aşağı olanların maaşları artıq artırılıb. Çünki, heç bir sektorda minimum əmək haqqı məbləğindən az maaş verilə bilməz. Yəni, əgər kimsə təhsil və səhiyyə sektorunda çalışırsa və əmək haqqısı 300 manat idisə, o vətəndaşlarımızın maaşları artıq artırılıb".

Deputat qeyd edib ki, hər iki sektorda aşağı maaşlarda artımlar həyata keçiriləcəyindən dərəcələr arası fərq nəzərə alınmaqla əmək haqqlar müəyyənləşdiyi üçün bu sahələrdə də maaş artımları mümkün hesab olunur.

"Fevral ayının ilk həftəsinədək bu məsələnin aydınlaşacağı gözlənilir. Çünki bu sektorlar üzrə uyğunlaşdırma üçün 1 ay zaman ayrılmışdı", - deyə Vüqar Bayramov bildirib.

# Kinematoqrafçılar İttifaqından kütləvi istefa

***Bir qrup mədəniyyət və incəsənət xadimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının üzlüyündən imtina edib.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, İttifaqın üzvlüyündən ümumilikdə 20-yə yaxın incəsənət nümayəndəsinin imtina etdiyi deyilir. Onlar arasında Xalq artisti Əbdül Mahmudov, Xalq artisti Ramiz Məlikov, Əməkdar İncəsənət Xadimi Yavər Rzayev, Əməkdar artist Gülşad Baxşıyeva, Əməkdar artist Münəvvər Əliyeva da var.

Xalq yazıçısı Natiq Rəsulzadə üzvlükdən imtina etmək məsələsinin çoxdan olduğunu deyib: "Mən o üzvlükdən çoxdan imtina eləmişəm. Çünki bir Xalq yazıçısı olaraq, məni nə katibliyə, nə də rəhbərliyə saldılar. Bu, hesab edirəm ki, doğru deyil, haqsız yanaşmadır. Bilirsiniz, mən hansısa qurumdan çıxanda qapını çırpmıram. Səs-küyü sevmirəm. Bu qədər adam üzvlükdən imtina edibsə, demək, burada nəsə var. Mən ümumiyyətlə, 5-6 ildir, ora ilə əlaqəni kəsmişəm".




Xalq artisti Ənvər Həsənov ittifaqın heç bir funksionallığının olmadığını əsas gətirib: "O ittifaq ümumiyyətlə niyə var? Nəyə yarayır? Azərbaycan kinosu üçün nə edib, mən bilmirəm. Mən neçə vaxtdır, xəstəyəm, dedilər, guya ittifaq mənə yardım üçün pul ayırıb, amma belə bir şey yox idi. Heç bir manat da ayrılmamışdı. Hamısı yalandır".

Xalq artisti Tariyel Qasımov da üzvlükdən imtina edənlər arasındadır: "Mən Özbəkistanda 17 filmə çəkilmişəm. Bu yaxınlarda Şöhrət Abbasovun yubileyinə dəvətim üçün Bakıya, İttifaqa teleqram vurublar. Amma bu, mənə deyilməyib. Təsəvvür edirsiniz? Şəfiqə Məmmədova bunu məndən gizlədib. Düzdür, bir gün qalmış xəbər tutdum, birtəhər getdim, amma edilən hərəkətə heç bir ad verə bilmədim. Bundan sonra artıq üzvlükdən imtina etdim. Mən seçki prosesində də olmamışam. Şəfiqə Məmmədova yenidən necə, harada sədr seçilib, bilmirəm, mən onu seçməmişəm, seçmək fikrim də olmayıb".

İttifaqın hazırkı sədri Xalq artisti Şəfiqə Məmmədova ilə əlaqə saxlamağa çalışsaq da, zənglərimizə cavab verilmədi.

Qeyd edək ki, bir müddət öncə ittifaqın mətbuat katibi Əli Vəliyev də ittifaqdan və ittifaqın mətbuat katibi vəzifəsindən ayrıldığını bildirmişdi.

# Kamal Abdullanın romanı Təbrizdə çap olundu



***Xalq yazıçısı Kamal Abdullanın "Sirlərin sərgüzəşti" romanı Təbrizdə çap olunub. Kitab əski əlifbaya güneyli soydaşımız Qadir Cəfəri tərəfindən köçürülüb.***

"Unikal" xəbər verir ki, yazıçının sayca dördüncü romanı olan bu əsərdə paralel zaman və məkan, yaddaş fenomeni, real və irreal hadisələrin təsviri özünün ədəbi-bədii əksini tapıb.

Roman müasir nəsr texnikasına xas olan iç-içə süjetlər və fəsillərlə assosiasiya olunan hadisələrin anoxronik ardıcıllığı şəklində qurulub. Əsərin qəhrəmanı olan Həsən müəllim (Hacı Mir Həsən Ağa Səyyah) nəql olunan əhvalatların fövqündə dayanaraq sirlərin sərgüzəştinə şahidlik və bələdçilik edir. Bu mənada roman oxucunu öz sirlərinin ağuşuna alır, onu da sirrə vaqif edir. Odunçu Əhmədin, Təpəgözün, Banuçiçəklə Beyrəyin çözülən sirri oxucunu Kamal Abdullanın bundan əvvəl qələmə aldığı mətnlərdəki mətləblərə bir daha üz tutmaq ehtiyacı ilə üz-üzə qoyur. "Sirlərin sərgüzəşti"ndəki arxetipik məqamlar romanı müəllifin digər mətnləri ilə aşkar və gizli lağımlarla bağlayır.

Kitabın redaktoru və ön sözün müəllifi Əlövsət Ağalarov yeni əsəri belə xarakterizə edir: "Əsərdəki dərin fəlsəfi-psixoloji anlardan uzun müddət ayrılmaq olmur, yaddaşın yaddaşsızlığı dərkolunmayacaq qəribə aləmə aparır oxucunu. Hacı Mir Həsən ağa Səyyah risalə yazmaq üçün "Sirri-Xuda"dan yox, qonşularının, tacir-tüccarların, padşahların, şeyxlərin və b. sirlərinə bələd olmağı, onların sərgüzəştlərindən yazmağı öhdəsinə götürür və məharətlə istəyinə çatır. Odunçu Əhmədin sirrindən tutmuş, ta Həsən müəllimin ailə sirlərinə qədər sirlərin sərgüzəştləri sizi başqa bir sirlər dünyasına aparacaq. Sona qədər oxuyun, nəticəni özünüz çıxaracaqsınız və Kamal Abdullanın sirli-sehrli yaradıcılığından həmişə olduğu kimi, bu dəfə də həzz olacaqsınız. Bu kitab Kamal Abdullanın digər kitabları kimi, uzun ömür sürməyə haqqı olan böyük yaradıcılıq nümunəsidir".

Qeyd edək ki, 2014-cü ildə Kamal Abdullanın "Sehrbazlar dərəsi" 2018-ci ildə "Yarımçıq əlyazma", 2022-ci ildə isə "Unutmağa kimsə yox" romanları da Təbrizdə işıq üzü görüb.

# Çaylarda gursululuq artacaq



***Qış aylarında yüksək dağlıq ərazilərə yağan qar nəticəsində toplanan qar ehtiyatları çaylarda gursululuq axımının formalaşmasına mühüm təsir göstərir.***

Milli Hidrometeorologiya Xidmətinin Hidrologiya Mərkəzinin direktoru Asif Verdiyev "Unikal"a bildirib ki, bu ilin yanvar ayının 1-ci ongünlüyündə dağlıq ərazilərdə yağan qar kifayət qədər yüksək qar örtüyünün əmələ gəlməsinə səbəb olub.

"Yaz-yay gursululuq dövründə çaylarda gözlənilən sululuğun proqnozlaşdırılması məqsədilə bu ilin mart ayının 1-ci yarısında Böyük və Kiçik Qafqazın dağlıq ərazilərində çayların hövzələrində qarölçmə işləri aparılacaq".

# Goranboyda payızlıq bitkilərin səpini haqqında statistika



***Rayonda 2023-cü ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini başa çatmışdır və cari il yanvar ayının 1-i vəziyyətinə 24863 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilib.***

Səpin aparılmış sahənin 94,1 faizini və yaxud 23390 hektarını dən üçün payızlıq bitkilər təşkil edib ki, onun da 8362,5 hektarı buğda, 15027,5 hektarı arpa əkinlərinin payına düşür.

Ən çox buğda bitkisi Goranboy şəhər, Sarov kənd, Faxralı kənd, Düzqışlaq kənd inzibati ərazi vahidlərində, ən çox arpa bitkisi Qızılhacılı qəsəbə, Hazır Əhmədli kənd, Borsunlu kənd, Tap Qaraqoyunlu kənd, Veyisli kənd inzibati ərazi vahidlərində səpilib.

Ötən ilin eyni dövrü ilə müqayisədə dən üçün payızlıq bitkilərin səpin sahəsi 4,5 faiz, o cümlədən buğdanın səpin sahəsi 5,3 faiz, arpanın səpin sahəsi isə 3,9 faiz artıb.



# "Putin mənim üçün heç kimdir" - Zelenski

***Ukrayna prezidenti Volodimir Zelenski Rusiya prezidenti Vladimir Putinlə danışıqlarda maraqlı olmadığını bildirib.***

"Unikal" xəbər verir ki, bu barədə "Sky News" məlumat dərc edib.

"Onunla görüşmək, danışmaq maraqlı deyil. Rusiyada kimin qərar verdiyini həqiqətən başa düşə bilmirəm. Ukraynada müharibə başlayandan sonra Putin mənim üçün heç kimdir", - Ukrayna dövlət başçısı qeyd edib.

***Ağarza***

# Ermənistanda hərbi hissə komandiri saxlanıldı

***Ermənistan Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin arxa cəbhə komandirinin müavini, polkovnik-leytenant Qor Agekyana qarşı cinayət iş açılıb.***

"Unikal" erməni mətbuatına istinadən xəbər verir ki, bu barədə hüquq-mühafizə orqanları məlumat yayıb.

Məlumatda Basarkeçər rayonunun Azad kəndində yerləşən hərbi hissənin komandiri olan Agekyan saxlanması ilə bağlı istintaq işlərinin davam etdirildiyi bildirilir.

Qeyd edək ki, noyabrın 18-də həmin kənddə yerləşən hərbi hissənin mühəndis-istehkam bölüyünün kazarmasında yanğın baş verib. Hadisə nəticəsində 15 hərbçi ölüb, 6 əsgər və 1 zabit yaralanıb. Bundan sonra Ermənistan silahlı qüvvələrinin İkinci ordu korpusunun komandiri polkovnik Vahram Qriqoryan və digər zabit heyəti işdən çıxarılıb.

***Gülayə Mecid***

# "Meta" Trampın hesablarını blokdan çıxarır

***"Meta" ABŞ-ın keçmiş prezidenti Donald Trampın bloklanan "Facebook" və "Instagram" hesablarını yaxın həftələrdə bərpa edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə şirkətin beynəlxalq məsələlər üzrə prezidenti Nik Kleq bildirib.

Onun sözlərinə görə, Tramp bütün yeni qaydalara, o cümlədən iğtişaşlar dövründə məşhur şəxslərin hesablarının tənzimlənməsinə tabe olacaq. Pozuntuların şiddətindən asılı olaraq, bir aydan iki ilə qədər müddətə hesabın yenidən məhdudlaşdırılması mümkündür.

# ABŞ-ın yeni səfiri Moskvaya getdi

***ABŞ-ın Rusiyadakı yeni səfiri Linn Treysi Moskvaya gedib.***

"Unikal" xəbər verir ki, bu barədə Amerika diplomatik missiyası öz "Twitter" səhifəsində məlumat yayıb.

Bundan əvvəl Dövlət Dumasının Xarici Əlaqələr Komitəsi sədrinin birinci müavini Aleksey Çepa demişdi ki, "Rusiya ilə ABŞ arasındakı münasibətlərdən çox şey asılıdır". O, ümid edir ki, Linn Treysinin səfir kimi təyinatı Rusiya Federasiyası ilə beynəlxalq vəziyyəti yumşaltmağa kömək edəcək.

***A.Elçinoğlu***

# "Moskva Vardanyanı Paşinyanın yerinə hazırlayır" - ABŞ nəşri

***Rusiya rejimi Cənubi Qafqazda etnik münaqişələri qızışdırmaq və Ermənistan hökumətini Moskvanın nümayəndəsi ilə əvəzləmək üçün Azərbaycanın Qarabağdakı erməni azlığını manipulyasiya edir.***



"Unikal" xəbər verir ki, bu barədə "The Washington Times" nəşri məlumat yayıb.

Məqalədə sözügedən ssenarinin Kremlin öz imperiya təsir dairəsini saxlamaq üçün Gürcüstanda, Moldovada və ya Ukraynada hazırladığı digər mübahisələri xatırlatdığı qeyd olunub.

"Rusiyanın "sülhməramlı kontingenti" Ermənistanla Azərbaycan arasında 2020-ci ildə baş vermiş müharibədən sonra Azərbaycanın işğaldan azad edilmiş ərazisi olan Qarabağa göndərilib. Bakı bütün işğal olunmuş rayonları geri ala bilsə də, Qarabağın özünün əhəmiyyətli hissəsi hələ də rus qoşunlarının nəzarətindədir. Moskva Qarabağ üzərində nəzarətini gücləndirir və Ermənistanın özünə hakim olmaq üçün regiondan istifadə etməyi planlaşdırır", - qeyd olunub.

Məqalədə yer tutan digər məsələ isə Moskvanın adamı Ruben Vardanyanın Qarabağdakı terrorçu rejimə "dövlət naziri" olunmasıdır: "Vardanyan indi Kreml tərəfindən İrəvanın xarici siyasətini Qərbə yönəltməklə Moskvanı özündən uzaqlaşdıran Ermənistanın baş naziri Nikol Paşinyanın yerinə hazırlaşır. Vardanyan Ermənistanın yeni milli lideri olduğunu iddia edir və Rusiyanın tam diplomatik, maliyyə və media dəstəyi ilə növbəti parlament seçkilərində iştirak etməyə hazırlaşır.

Rusiyanın ən varlı adamlarından biri olan Vardanyan Putinə yaxın adamdır. O, ölkənin prezidenti yanında "ekspert şuraları"nda çalışıb və Kremlin rəhbərlik etdiyi Primakov Xarici Siyasət Əməkdaşlıq Mərkəzinin həmtəsisçisi olub.

O, ofşor şirkətlər vasitəsilə pulların yuyulmasında və Putinin nüfuzlu yaxınlarına pul köçürməkdə ittiham olunur".

Məlumatda qeyd olunub ki, Vardanyan Qarabağdakı qiymətli yataqları istismar edir: "Vardanyan Qarabağa rəhbərlik etməyə başlayandan sonra qeyri-qanuni yolla regionun Azərbaycana məxsus mis, molibden və qızıl yataqlarını ələ keçirib. Rusiya hərbçiləri tərəfindən qorunan sərvətlər ətraf mühitin mühafizəsi qaydalarına zidd olaraq talan edilib. Azərbaycan hakimiyyəti ekspertlərə mədənlərə giriş icazəsi verilməsini tələb etsə də, bu, dəfələrlə rədd edilib.

Azərbaycan QHT-ləri və ətraf mühit fəalları separatçı anklavdan təbii sərvətlərin çıxarılmasının qarşısını almaq üçün aksiyalar keçirməklə cavab veriblər. Bu qanuni etirazları gözdən salmaq üçün Vardanyan erməniləri Azərbaycan əleyhinə nümayişlərdə iştiraka təhrik etməklə və yalandan ekoloji etirazların Bakının Qarabağda erməniləri acından öldürmək üçün təşkil etdiyi blokada olduğunu iddia edərək humanitar böhran yaratmağa çalışıb. Lakin bu dezinformasiya hətta erməni mənbələri tərəfindən də ifşa olundu və göstərdi ki, ərzaq, dərman və Qızıl Xaç humanitar yardımı heç bir maneə olmadan çatdırılmağa davam edir".

***Ağarza Elçinoğlu***

# Belarus hərbi aviasiyasını Rusiyaya köçürəcəyini açıqladı

***Rusiya və Belarus qoşunlarının regional qrupuna məxsus aviasiya bölmələri Rusiya aerodromlarına köçürüləcək.***



"Unikal" xəbər verir ki, bu barədə Belarus Müdafiə Nazirliyi məlumat yayıb.

"Belarus Respublikası və Rusiya Federasiyası silahlı qüvvələrinin birgə taktiki-uçuş təlimi çərçivəsində Belarus və Rusiya aviasiya birləşmələrinin hava eşelonlarının əməliyyat aerodromlarına, o cümlədən Rusiya ərazisində yerləşən aerodromlara köçürülməsi məsələləri müzakirə olunur", - nazirliyin açıqlamasında bildirilir.

Helikopter ekipajları həmçinin Brestski poliqonunda xüsusi təyinatlı qüvvələrin bölmələrinin paraşüt və paraşütsüz enişini həyata keçirir.

# Rus qoşunları Ukraynanın daha bir şəhərinə daxil oldu

***Rus qoşunları Donetsk ətrafındakı Uqledar şəhərinə daxil olub.***

"Unikal" xəbər verir ki, bu barədə özünü elan edən Donetsk Xalq Respublikası (DXR) rəhbərinin müşaviri İqor Kimakovski bildirib.

Onun sözlərinə görə, hazırda şəhərin kənarında döyüşlər gedir: "Əks-hücuma keçməyə çalışan düşmənə qarşı Rusiya artilleriyası istifadə olunur".

Həmçinin, Rusiyanın işğal etdiyi Xerson vilayətinin fövqəladə hallar xidmətinin nümayəndəsi qeyd edib ki, artilleriyaçılar Dnepr çayının sağ sahilində Ukrayna ordusunun anbarını məhv ediblər.

# Millimiz Premyer Liqa üçün Qahirəyə yollandı

***Azərbaycan yığması yanvar 27-29-da Karate1 seriyasından yeni mövsümün ilk Premyer Liqa turnirində iştirak etmək üçün Misirin paytaxtı Qahirəyə yollanıb.***

Milli Karate Federasiyasından verilən məlumata görə, qurumun prezidenti Yaşar Bəşirov və baş katib Camal Murtuzəliyevin rəhbərlik etdiyi heyətdə 25 nəfər yer alıb.

Kumite üzrə kişilərdən ibarət milli komandanın baş məşqçisi Qurban Tağıyev, böyük məşqçilər Şahin Xudaverdiyev və Rəşad Hüseynov müxtəlif çəkilərdə bir neçə idmançının çıxış etməsinə




üstünlük verib. Onlardan Əminağa Quliyevlə Sultan Hüseynov 60 kq, Tural Ağalarzadə, Firdovsi Fərzəliyev, Nuran Rzazadə 67 kq, Fərid Ağayev 75 kq, Ayxan Mamayev, Pənah Abdullayev, Turqut Həsənov 84 kq, Asiman Qurbanlı və Osman Osmanlı isə +84 kq çəki dərəcələrində döyüşəcək.

Roman Heydərov kata yarışlarında iştirak edəcək. Kumite üzrə qadınların baş məşqçisi Denis Morozov Fidan Teymurovaya (50 kq), Mədinə Sadiqovaya (55 kq), Renata Ərəbliyə (61 kq) və İrina Zaretskaya (68 kq) şans verəcək.

Beynəlxalq hakimlər Cahangir Babayev və Vüqar Kərimov 58 ölkədən 382 idmançının mübarizə aparacağı Karate1 Premyer Liqa turnirinin Qahirə mərhələsini idarə edən referilər arasında olacaq.

# "Qarabağ" Benzia ilə danışıqları təsdiqlədi

***"Qarabağ"dan Fransa "Dijon"unun futbolçusu Yassin Benzianı transfer etmək istədikləri barədə xəbərlərə münasibət bildirilib.***

Klubun mətbuat xidmətinin rəhbəri Gündüz Abbaszadə Qol.az-a açıqlamasında Ağdam təmsilçisinin 29 yaşlı yarımmüdafiəçi ilə danışıqlar apardığını təsdiqləyib və onunla razılaşmağa yaxın olduqlarını bildirib: "Bəli, "Qarabağ"ın transfer etmək istədiyi futbolçuların siyahısında Yassin Benzia da var. Hazırda onunla danışıqlarımız davam edir. Benzia ilə danışıqların yekununa əsasən müqavilə imzalanacaq. Müqavilənin detalları barədə məlumat verə bilməyəcəyəm. Danışıqlar yekunlaşdıqdan sonra bütün detallara aydınlıq gələcək".

Əlavə edək ki, Yassin Benzia Fransada "Lion", "Lill", Yunanıstanda "Olimpiakos", Türkiyədə "Fənərbaxça" və "Hatayspor" kimi komandaların da formasını geyinib. Əlcəzair millisinin sabiq üzvü Fransanın aşağı yaş qruplarından ibarət




yığmalarında da çıxış edib. Fransanı "L'equipe" nəşri "Qarabağ"ın Yassin Benzia ilə 2,5 illik müqavilə imzalaya biləcəyi barədə məlumat yayıb.

# "Qarabağ" - "Neftçi" oyununun vaxtı açıqlandı

***Misli Premyer Liqasında 22, 23 və 24-cü turların oyun cədvəli açıqlanıb.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, 22-ci turun oyunları 10-12 fevral, 23-cü turun matçları 17-19 fevral, 24-cü turun görüşləri isə 24-27 fevral tarixlərində oynanılacaq.

**22-ci tur**

10 fevral (cümə)
15:00. "Qəbələ" - "Neftçi"
Qəbələ şəhər stadionu
11 fevral (şənbə)
14:00. "Turan Tovuz" - "Kəpəz"
Tovuz şəhər stadionu
17:00. "Qarabağ" - "Sabah"
"Azersun Arena"
12 fevral (bazar)
15:00. "Səbail" - "Zirə"
"ASCO Arena"



17:30. "Sumqayıt" - "Şamaxı"
"Kapital Bank Arena"

**23-cü tur**

17 fevral (cümə)
14:00. "Kəpəz" - "Şamaxı"
Gəncə şəhər stadionu
18 fevral (şənbə)
15:00. "Qəbələ" - "Sumqayıt"
Qəbələ şəhər stadionu
17:30. "Neftçi" - "Səbail"
"Bakcell Arena"
19 fevral (bazar)
16:30. "Sabah" - "Turan Tovuz"
"Bank Respublika Arena"
19:00. "Zirə" - "Qarabağ"
Zirə İdman Kompleksinin stadionu

**24-cü tur**

24 fevral (cümə)
14:00. "Turan Tovuz" - "Zirə"
Tovuz şəhər stadionu
19:00. "Səbail" - "Qəbələ"
"ASCO Arena"
25 fevral (şənbə)
14:30. "Şamaxı" - "Sabah"
Şamaxı şəhər stadionu
17:00. "Sumqayıt" - "Kəpəz"
"Kapital Bank Arena"
27 fevral (bazar ertəsi)
20:00. "Qarabağ" - "Neftçi"
"Azersun Arena"

# "Real"ın futbolçusu Mərakeş yığmasında oynamağa razılıq verdi

***Madrid "Real"ının ispaniyalı futbolçusu Brahim Diaz Mərakeş millisində çıxış edəcək.***

Apasport.az saytı xəbər verir ki, İtaliya "Milan"ında icarə əsasında çıxış edən yarımmüdafiəçi Afrika təmsilçisinin formasını geyinməyə razılıq verib.

23 yaşlı futbolçu artıq yığmanın martda keçiriləcək təlim-məşq toplanışına dəvət edilib. Qeyd edək ki, Malaqada doğulan Diazın Mərakeş köklərinin olduğu bildirilir. Qətərdə keçirilən dünya çempionatından əvvəl ona millisində oynamaq təklifi edilsə də, bundan imtina etmişdi.





# Əsas heyətin 5 üzvü "Mançester Siti"dən gedir

***"Mançester Siti"nin 5 əsas oyunçusu yay transfer pəncərəsi zamanı klubu tərk etmək niyyətindədir.***

Bu barədə "El Chiringuito" məlumat yayıb. Komandadan ayrılmaq istəyənlərin siyahısına İlkay Gündoğan, Bernardo Silva, Kayl Uoker, Joao Kanselu və Emerik Laport daxildir.

Gündoğanın "Siti" ilə müqaviləsi yayda başa çatır. Klub onunla yeni müqavilə bağlamaq istəyir, lakin Gündoğanın özü ayrılmağı düşünür. Daha əvvəl onun "Barselona" ilə ilkin razılaşdığı bildirilirdi.

Bernardo Silva uzun müddətdir ki, klubun dəyişmək haqda düşünür. Futbolçu ilə "Barselona", "Real" və PSJ fəal maraqlanırdı. Silva "Siti"nin yeni müqavilə təkliflərini rədd edir. Silvanın həmyerlisi Kanselunun baş məşqçi Pep Qvardiola və məşqçilər korpusu ilə münasibətləri gərgindir. Bu səbəbdən də o, komandadan getmək istəyir.

Laport da oxşar səbəblərdən 2023-cü ilin yayında ümumilikdə İngiltərəni tərk etməyi düşünür.

Qeyd edək ki, "Mançester Siti" Premyer Liqada 20 oyundan sonra 45 xalla turnir cədvəlinin 2-ci pilləsində qərarlaşıb. "Şəhərlilər" Çempionlar Liqasının 1/8 finalında "Leyptsiq"lə qarşılaşacaq.

# Ronaldo: "Böyük oyunu səbirsizliklə gözləyirəm"



***"Əl-Nəsr"in dünyaca məşhur futbolçusu Kriştiano Ronaldo Səudiyyə Ərəbistanı Kubokunun yarımfinalında "Əl-İttihad"la keçirəcəkləri oyun barədə fikirlərini bölüşüb.***

Qol.az xəbər verir ki, 37 yaşlı hücumçu bu haqda öz sosial şəbəkə hesablarında paylaşıb. O yazıb: "Böyük oyunu səbirsizliklə gözləyirəm! İrəli, komanda!"

Ronaldonun komandası yarımfinalda qələbə qazanacağı təqdirdə finalda "Əl-Hilal" - "Əl-Feyha" cütünün qalibi ilə üzüzə gələcək.

Xatırladaq ki, portuqaliyalı forvard "Əl-Nəsr"in heyətində debütünü ötən həftəsonu Səudiyyə Ərəbistanı çempionatının "Əl-İttifaq"la görüşündə etmişdi. Kriştiano matçda start heyətdə meydana çıxıb və sonadək mübarizə aparıb.

Ronaldo 2022-ci ilin sonunda "Əl Nəsr"ə keçib. O, daha əvvəl noyabr ayında "Mançester Yunayted"lə müqaviləsini ləğv etmişdi.

# "Qarabağ"dan yeni transfer

***"Qarabağ" klubu Albaniya millisinin futbolçusu Redon Cicanın transferini açıqlayıb.***



"Unikal"xəbər verir ki, bununla bağlı Ağdam klubunun sosial şəbəkə hesabında video paylaşılıb.

Son olaraq ölkəsinin "Tirana" komandasında çıxış edən 25 yaşlı forvardla 3,5 illik müqavilə imzalanıb.

Qeyd edək ki, Redon Cica karyerasında yalnız öz ölkəsində çıxış edib. "Şkendiya"nın yetirməsi olan futbolçu 2017-ci ildə "Laçi"yə keçib və 4 mövsüm bu komandanın şərəfini qoruyub. O, 2021-ci ildən formasını geyindiyi "Tirana"da 49 oyuna 29 qol vurub.